## Hulusi Akar: "Azərbaycanın mübarizəsində sona qədər yanında olacağıq"



**"Türkiyə Silahlı Qüvvələri dost və qardaşlarının hüquq və mənafelərini izləmək və qorumaq üçün mübarizəsini davam etdirəcək".**

Bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar Kayseridə Böyükşəhər Bələdiyyəsi Məclis Salonunda etdiyi çıxışında deyib. Nazir Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə Silahlı Qüvvələrinin ölkə daxilində və sərhədlər xaricində mübarizəsini davam etdirdiyini qeyd edib.

"Azərbaycanın "gecə-gündüz", "dağ-təpə", "yay-qış" deməndən "Ölsəm şəhid, qalsam qazi" anlayışı ilə mübarizəsində sona qədər yanında olacağıq", - H.Akar bildirib.



## İranda terror qruplaşması zərərsizləşdirilib

**Bu gün İranın Sistan və Bəkuçistan əyalətinin Səravan sərhəd bölgəsində terror qruplaşmasının üzvlərinə qarşı əməliyyat keçirilib.**

APA-nın Tehran bürosunun məlumatına görə, əməliyyat zamanı 4 terrorçu öldürülüb.

*Onlardan xeyli sayda silah-sursat götürülüb. Hadisə ilə bağlı əlavə məlumat verilməyib.*


№ 231 (5513), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 dekabr 2021-ci il (cümə)




## İşçilərin sayı 5 nəfərdən çox ola bilməz

### Yaşayış binalarında ofislərin yerləşdirilməsinə şərtlə icazə verilir

**Yaşayış binasının sonuncu mərtəbəsində rəssam və memarlar üçün emalatxanalar, həmçinin işçilərin sayı 5 nəfərdən çox olmayan ofis otaqları yerləşdirilə bilər.**

Bu barədə məsələ Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının təsdiqlədiyi "Yaşayış binaları. Layihələndirmə normaları"nda öz əksini tapıb.

Bu zaman Normaların 7.2.13-cü yarımbəndinin (İctimai təyinatlı sahələrin binanın yaşayış hissəsindən təcrid olunmuş girişləri və təxliyyə çıxışları olmalıdır) tələbləri nəzərə alınmalıdır.

Hündürlüyü 28 m-dək və ən azı II odadavamlılıq dərəcəsi olan binaların mansarda mərtəbələrində ofis otaqlarının yerləşdirilməsinə yol verilir.



## Fransa Prezidenti Azərbaycan dilində paylaşım edib

**Fransa Prezidenti Emmanuel Makron feysbukdakı hesabında Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü ilə bağlı paylaşım edib.**

O, Azərbaycan dilində status yazıb:

"Biz davamlı sülh üçün həll yolları tapmalıyıq. Dünən axşam Prezident Əliyevlə, sonra da Baş nazir Paşinyanla birgə işlədik", - paylaşımda bildirilib.

*Qeyd edək ki, dekabrın 15-də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Belçikanın paytaxtı Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistan Baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş keçirilib.*

## Türkiyədə minimum əməkhaqqı 50 faiz artırıldı



**Türkiyədə 2022-ci il üçün minimum əməkhaqqı 50 faiz artırılaraq 4 250 lirəyə çatdırılıb.**

Trend-in məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Minimum əməkhaqqının müəyyənləşdirilməsi üzrə komissiyanın iclasında deyib.

Onun sözlərinə görə, gələn ildən etibarən minimum əməkhaqqı gəlir vergisindən azad ediləcək.

(səh.2)

# Bakının tələbləri qəbul olunur

## Paşinyan Azərbaycanla razılaşmanın ən doğru yol olduğunu ölkəsində də söylədi



**Brüsseldən Ermənistana qayıdan Nikol Paşinyan hökumətin iclasında Azərbaycanla razılaşmalardan danışıb. Baş nazir bildirib ki, rəsmi Bakı ilə razılaşmalar regionun simasını dəyişə bilər.**

"Azərbaycan Prezidenti İlham Əliyev ilə dəmir yolunun tikintisi ilə bağlı əldə olunan razılaşmaların icrası zamanı regiondakı siyasi, iqtisadi mühiti, eləcə də təhlükəsizlik mühitini dəyişəcək. Razılaşmaları qiymətləndirməmək mümkün deyil. Bu, mühüm razılaşmadır və ümid edirəm ki, biz onu dəqiqliklə yerinə yetirəcəyik".

Paşinyan qeyd edib ki, Prezident İlham Əliyevlə Brüsseldə keçirilən görüşdə Yeraşx-Culfa-Ordubad-Meğri-Horadiz dəmir yolunun tikintisi ilə bağlı razılıq əldə olunub: "Yaxın vaxtlarda bu məsələnin həllinə köklənmək lazımdır. Onu da bildirim ki, gündəlikdəki iktiərfli məsələlər barədə təmaslarin Azərbaycan Prezidenti İlham Əliyevlə davam etdirilməsi barədə razılıq əldə edildi.

(səh.3)



## Ermənistan Baş Qərargah rəisinin müavini istefaya göndərilib

**Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini Stepan Qalstyan tutduğu vəzifədən azad edilib.**

"Report" "Sputnik Armeniya"ya istinadən xəbər verir ki, bu barədə ölkə Prezidenti Armen Sarkisyan müvafiq sərəncam imzalayıb.

*Qeyd edək ki, S.Qalstyan oktyabrın 2-də həbs edilib. Ermənistan Milli Təhlükəsizlik Xidməti onun geniş miqyasda sui-istifadə və mənimsəmə iddiası ilə tutulduğunu bildirmişdi. Eyni ittihamlarla Ermənistanın keçmiş müdafiə naziri David Tonoyan və silah təchizatı şirkətinin rəhbəri, iş adamı David Qalstyan da həbsdədir.*

# Ustalar yetişməlidir

## Ölkəyə hibrid avtomobillərin gətirilməsi artacaqsa, infrastruktur da genişlənməlidir

**Hibrid avtomobillərin ölkəyə idxalı və satışı növbəti ildən vergidən azad edilir.**

Bu barədə məsələ Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərdə öz əksini tapıb. Məcəlləyə təklif edilən dəyişikliyə əsasən, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı üçün 2022-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV tutulmayacaq.

(səh.5)



## Azərbaycanda 160 mindən çox uşağa görə aliment ödənilir



**"İcra xidmətinin icraatında 700 mindən çox icra sənədləri varsa, onlardan 100 mindən çoxu aliment tələbi ilə bağlıdır. İcraatda olan icra sənədlərinin 30-35 faizdən çoxunu borc tələbləri təşkil edir."**

Bunu Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin Analitik-nəzarət şöbəsinin aparıcı məsləhətçisi Kəmalə Əhmədova "Aliment və digər borc tələblərinə dair qərarların icrası" mövzusunda feysbukda keçirilən canlı yayımda deyib.

Onun sözlərinə görə, bunların sayı ilbeil artmaqdadır: "Aliment işlərində uşaqların sayı 160 mindən çoxdur. 2009-cu ildə alimentlə bağlı icra sənədlərinin sayı 25 mindən çox idisə, son iki ildə 4 dəfəyə qədər artım olub. Bununla da 99 mindən çox icraatda icra tələbi olub. Son il yarım ərizində 130 milyon manatdan çox aliment tələbkarlara ödənilib".

## 984 nəfər koronavirusa yoluxub

### 12 nəfər vəfat edib, 1 748 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 984 yeni yoluxma faktı qeydə alınıb, 1 748 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 12 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 608 060 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 582 243 nəfər müalicə olunaraq sağalıb, 8 149 nəfər vəfat edib, aktiv xəstə sayı 17 668 nəfərdir.



## Azərbaycan hazırlaşırmı?

Dəhşətli istilər gəlir, dünya iqtisadiyyatı 1,6 trilyon dollar itirəcək

(səh.5)

## "Valideynlərin məktəbə yardım etməsinə mənfi tərəfdən baxmaq doğru deyil"

Günel Səfərova: "Əsas odur ki, bu yardımlar, ianələr rüşvət kateqoriyasına keçməsin"



(səh.6)

# Nazirlər Kabinetinə tapşırıq verildi

## Prezident İlham Əliyev şəhid ailələri və müharibə əlilləri ilə bağlı fərman imzalayıb



**Prezident İlham Əliyev şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında Fərman imzalayıb.**

Fərmanda qeyd edilir ki, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsində, Qaradağ rayonunun Ümid qəsəbəsində, Binəqədi rayonunun Xocasən qəsəbəsində, Abşeron, Lənkəran və Samux rayonlarında inşa edilmiş çoxmənzilli binalarda, həmçinin Bakı şəhəri Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində və Abşeron rayonunda inşası davam etdirilən, dövlət mənzil fonduna aid çoxmənzilli binalarda yerləşən mənzillərin (bu Fərmanın 4-cü hissəsi nəzərə alınmaqla) Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 146.4-cü maddəsinə əsasən özəlləşdirilməsi həmin mənzillərin satışı yolu ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən həyata keçirilsin.

Nazirlər Kabinetinə tapşırılır ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə qaydasının layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılır:

3.1. bu Fərmanın 1-ci hissəsində qeyd edilən mənzillərin satışını bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan qaydaya uyğun olaraq təşkil etsin;

3.2. mənzillərin satışından əldə olunan vəsait hesabına yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış aşağıdakı şəxslərin mənzillə və ya fərdi evlə təmin edilməsi üçün tədbirlər görsün:

3.2.1. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamının 1-ci hissəsində nəzərdə tutulmuş şəxslər;

3.2.2. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamının 1-ci hissəsində nəzərdə tutulmuş şəxslər;

3.2.3. bu Fərmanın 3.2.2-ci yarımbəndində nəzərdə tutulan, 2020-ci və 2021-ci illər ərzində yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəxslər;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan mənzillərin satışına aşağıdakı hallarda yol verilir:

4.1.həmin mənzillərin sayı yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış bu Fərmanın 3.2.1 - 3.2.3-cü yarımbəndlərində nəzərdə tutulan şəxslərin, eləcə də bu Fərman qüvvəyə mindiyi günədək yaşayış sahəsinə ehtiyacı olan qismində uçotda olan gözdən əlilliyi müəyyən edilmiş şəxslərin, habelə uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarının sayından artıq olduqda;

4.2. həmin mənzillərin Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş yaşayış sahəsinin ayrılma norması nəzərə alınmaqla bu Fərmanın 3.2.1 - 3.2.3-cü yarımbəndlərində nəzərdə tutulan şəxslərə verilməsi mümkün olmadıqda.

5. Yerli icra hakimiyyəti orqanları bu Fərmanın 3.2.3-cü yarımbəndində göstərilən şəxslər barədə məlumatları Nazirliyə təqdim etsinlər.

Bu Fərmanın 1-ci hissəsi və 3.1-ci bəndi bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan qayda ilə eyni gündə qüvvəyə minir.

## İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti seçilib



**Prezident İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Prezidenti seçilib. Bu barədə Milli Olimpiya Komitəsindən məlumat verilib.**

Dekabrın 16-da MOK-un onlayn formatda VIII hesabat-seçki Baş Məclisi keçirilib.

Əvvəlcə MOK-un İcraiyyə Komitəsinin və Təftiş Komissiyasının hesabatı dinlənilib. Hesabat-seçki Baş Məclisin iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilib.

Daha sonra İlham Əliyev, Çingiz Hüseynzadə, Fərid Qayıbov, Azər Əliyev, Zemfira Meftaxetdinova, Nazim Hüseynov, Namiq Abdullayev, Fərid Mansurov, Faiq Qarayev, Könül Nurullayeva, Mariana Vasileva və Ramil Hacı MOK-un İcraiyyə Komitəsinin üzvü seçiliblər. İclasda MOK-un Təftiş Komissiyasına üzvlərin də seçkisi baş tutub. Lyudmila Şubina, Hicran Şərifov, Balakişi Qasımov, Niyaməddin Paşayev və Yaşar Bəşirov Təftiş Komissiyasına üzv seçiliblər.

## Türkiyədə minimum əməkhaqqı 50 faiz artırıldı

**Türkiyədə 2022-ci il üçün minimum əməkhaqqı 50 faiz artırılaraq 4 250 lirəyə çatdırılıb.**

Trend-in məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Minimum əməkhaqqının müəyyənləşdirilməsi üzrə komissiyanın iclasında deyib.

Onun sözlərinə görə, gələn ildən etibarən minimum əməkhaqqı gəlir vergisindən azad ediləcək.

"Bəzi çətinliklərimiz var, amma tezliklə bunların öhdəsindən gələcəyik. Son dövrlərdə məzənnədə baş verən dalğalanma və bunun nəticəsində qeydə alınan bahalaşmaya ən qısa zamanda son qoymağa hazırıq. Yaxın zamanlarda həyata keçirəcəyimiz tədbirlərlə bunu reallaşdıracağımıza inanıram", - deyə R.T.Ərdoğan bildirib.

*Qeyd edək ki, son sutka ərzində Türkiyə lirəsi ABŞ dollarına nisbətdə daha 5 faiz dəyər itirib. Hazırda Türkiyədə 1 dolların qiyməti 15,5 lirə ətrafında təşkil edir.*




## 12 illik təhsilə keçid vacibdir

### Bu, bizə təhsili daha sistemli təşkil etməyə, dərs saatlarını artırmağa imkan verəcək

**"Son günlər cəmiyyətdə 12 illik təhsilə keçidlə bağlı müzakirələr aparılır".**

Bunu millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, müəyyən ciddi hazırlıqlar həyata keçirildikdən sonra ölkəmizin 12 illik təhsilə keçidi təhsilimizin inkişafına töhfə verə bilər: "Dünyanın əksər ölkələrində 12 illik təhsil tətbiq olunur. Bu həmçinin bizə təhsili daha sistemli təşkil etməyə, dərs saatlarını artırmağa imkan verəcək. Bu, eləcə də xarici ölkələrdə bizim gənclərimizin təhsillərini uğurla davam etdirmələrinə öz təsirini göstərəcək. Bununla həm də beynəlxalq təcrübəyə keçmiş olacağıq. 12 illik təhsillə bağlı bir sıra hallarda tələbələrimizin xarici ölkələrdə üzləşdiyi çətinliklərin həllinə öz müsbət təsirini göstərəcək".

**İsmayıl**

## Ərdoğan İlon Maskla kosmos sahəsində əməkdaşlığı müzakirə edib

### Danışıqlarda, həmçinin mövcud avtomobillərin inkişafı üçün gələcək addımlara toxunulub



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan amerikalı sahibkar, "Tesla" və "SpaceX" şirkətlərinin rəhbəri İlon Maskla videokonfrans keçirib.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Türkiyə Prezidentinin administrasiyası məlumat yayıb.

Tərəflər kosmik və mobil texnologiyaları sahəsində əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Danışıqlarda, həmçinin mövcud avtomobillərin inkişafı üçün gələcək addımlara toxunulub.

Belə ki, Türkiyə yaxın illərdə kütləvi istehsal etmək niyyətində olduğu TOGG elektrik avtomobili üçün litium-ion batareyaları əldə edə biləcək.

Ərdoğan, həmçinin "SpaceX" rəhbərinə Ankaranın pilotsuz və idarə olunan uçuşlar həyata keçirməyi və öz astronavtlarını hazırlamağı planlaşdırdığı Türkiyənin Milli Kosmik Proqramı haqqında da danışıb.

**Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə dekabrın 15-də Brüsseldə Azərbaycan lideri İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş keçirilib. E.Makron məlum görüşdən sonra "Twitter" hesabında paylaşım edərək vurğulayıb ki, Fransa heç vaxt erməniləri tərk etməyəcək:**

"Həmişə davamlı sülh üçün həll yolları axtaracağıq. Bayram mövsümündə humanitar irəliləyişə, sülhə çağırış edirəm".



## "Makronun əlinə fürsət düşüb"

### Səməd Seyidov: "Prezident seçkilərində qalib olmaq üçün ermənilərin yanında olduğunu göstərsin"

**Makronun ikili standartlara xidmət edən mövqeyini "Şərq"ə şərh edən Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) Azərbaycan nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov bildirib ki, E.Makronun bu addımı 2022-ci ildə keçiriləcək prezident seçkilərinə hesablanıb:**

"Bir neçə aydan sonra Fransada prezident seçkiləri baş tutacaq. Bu ölkədə prezidentliyə namizədlərin içərisində seçici rəqabəti gedir. Bu rəqabətdə namizədlər erməni əsilli olan seçicilərin səslərini qazanmaqdan ötrü əllərindən gələni edirlər. Məsələn, ultra-sağçı mövqedə dayanan Erik Zimur bir-iki həftə bundan qabaq Ermənistana getdi. Respublikaçı Valeri Pekres çox aktiv fəaliyyət həyata keçirir. Bir həftədən sonra o da Ermənistana səfər edəcək. Bu səfərlərin arxasında erməni seçicilərin səslərini qazanmaq cəhdləri dayanır. Əlavə olaraq, yanvarın 1-dən Fransa Avropa Birliyində sədrliyi ələ götürür. Makronun də əlinə fürsət düşüb ki, prezident seçkilərində qalib olmaq üçün ermənilərin yanında olduğunu göstərsin. Bir daha şahid olduq ki, Aİ səviyyəsindəki görüş ATƏT-in həmsədr ölkəsinin Prezidenti Makronun vasitəçiliyi ilə keçirilən qeyri-formal danışıqlardan çox uğurlu keçib".

**Xanlar Əlibəy**

## Reallıqlar dəyişir

### "Rusiya Qərb və Türkiyənin bölgədəki rolundan narahatdır"



**Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova Brüssel danışıqlarının yekunlarını şərh edib. O bildirib ki, Kreml Azərbaycan və Ermənistan arasında birbaşa təmasların davam etdirilməsini alqışlayır:**

"İki liderin görüşü sözün əsl mənasında dünən axşam baş tutub. Görüşlə bağlı informasiyalar gəlməkdə davam edir. Mütəxəssislərimiz onları təhlil edirlər. Ümid edirik ki, Brüssel müzakirələrinin nəticələri Azərbaycan, Ermənistan və Rusiya liderlərinin əvvəlki görüşlərdə əldə etdikləri üçtərəfli razılaşmaların reallaşmasına töhfə verəcək".

**M.Zaxarovanın bəyanatını "Şərq"ə dəyətləndirən AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli bildirib ki, Rusiyann özünü səmimi göstərməkdən başqa yolu yoxdur:**

"Rusiya indiki vəziyyətdən, Avropa və Türkiyənin müdaxiləsindən narahatdır. Konfiqurasiyalar, reallıqlar dəyişir. Daha Amerika, Rusiya istədiyini edə bilmir. Yeni qütblü dünyada da dağılmış daşlar yerinə oturur. Belə bir durumda Azərbaycan çalışmalıdır ki, öz yerini möhkəm saxlaya bilsin. Soçi və Brüssel görüşünün nəticələrini gedişatda görəcəyik. Ən azından bildiyimiz kimi bu məsələ Rusiyanın inhisarından çıxıb. Bu məsələ Azərbaycan, Türkiyə və Qərbin maraqlarına cavab verir. Amma unutmayaq ki, Avropa prosesləri ATƏT-in Minsk qrupunun nəzarəti altına yenidən qaytarmağa çalışacaq. Bu, Azərbaycanın maraqlarına qətiyyən xidmət etmir. Çünki ABŞ və Fransanın mövqeyi məlumdur".

**Sücayət Mehti**

**"Prezident İlham Əliyevin Brüsseldə Zəngəzur dəhlizi ilə bağlı rəsmi Bakının birmənalı və konkret mövqeyini ortaya qoyması olduqca təqdirəlayiqdir".**



## Zəngəzurda post olacaqsa, Laçında da olacaq

### Prezidentin Brüsseldə prinsipial mövqeyi əlimizi gücləndirdi

Bu barədə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, prezident haqlı olaraq vurğuladı ki, Zəngəzur dəhlizi və Laçın dəhlizindən istifadə rejimi eyni olmalı, Ermənistan da eyni şəraiti Naxçıvanla Azərbaycanın digər əraziləri arasında təmin etməlidir: "Ermənistan bunu etməyə borcludur və məhkumdur. 10 noyabr və 11 yanvar bəyanatlarını imzalayan Ermənistan bununla bağlı üzərinə konkret öhdəliklər götürüb. Bu ölkənin sürüşkən mövqeli Baş naziri Nikol Paşinyanın isə guya, 10 noyabr bəyanatında "dəhliz" sözünün yer almaması ilə bağlı söylədikləri söz oyunu və spekulyasiyadan başqa bir şey deyil. İmzaladığı öhdəliyin məsuliyyətini dərk etməyən Ermənistan liderinin sözlərin formal tərəfini qabartması sadəcə və sadəcə öz ölkəsinin ictimaiyyətini, daxili auditoriyanı aldatmaq cəhdidir. Dövlət başçısı İlham Əliyev istər Paşinyanın, istərsə də bütün ermənilərin anlaya biləcəyi tərzdə, çox sadə dildə izah etdi ki, bu gün Azərbaycan Laçın dəhlizindən sərbəst və təhlükəsiz istifadə etməyiniz üçün tam normal şərait yaradıb. Laçın dəhlizində heç bir post yoxdur. Deməli, Zəngəzur dəhlizində də heç bir gömrük postları olmamalıdır. Məsələ bu qədər aydın və sadədir. Amma həm də prinsipial məsələdir. Əgər Ermənistan Azərbaycanın Zəngəzur dəhlizindən eyni şərtlərlə istifadə etmək haqqını tanımasa, o zaman Azərbaycan da Laçın dəhlizində gömrük postu açmaq imkanından yararlanacaq". Ə.Hüseynov vurğulayıb ki, Ermənistanın yalnız iki seçimi var. Ya Azərbaycanın şərtləri əsasında Zəngəzur dəhlizinin açılmasına razılıq verməli, ya da Laçın dəhlizindən istifadə etmək imkanını itirməsi ilə barışmalıdır: "Ölkə rəhbəri İlham Əliyevin də qeyd etdiyi kimi "biz hər iki varianta açığıq, ya hər iki tərəfdən olmalıdır, ya da olmamalıdır". Azərbaycanın dövlət başçısının Brüsseldə Zəngəzur dəhlizi ilə bağlı bu cür prinsipial mövqe sərgiləməsi proseslərin sonrakı gedişində əlimizi daha da gücləndirəcək".

**İsmayıl Qocayev**

# İnkişafın yeni mərhələsi...

## Sazişdən sonra Azərbaycan Avropa qaydaları ilə idarə olunacaq



"Avropa İttifaqı ilə əlaqələr ölkəmizi həm də siyasi-hüquqi cəhətdən qoruyacaq"

İsmayıl Qocayev

**Prezident İlham Əliyev Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində çıxışı zamanı Azərbaycanla Avropa İttifaqı arasındakı əməkdaşlıqdan danışıb. Dövlət başçısı 2018-ci ildə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyətini vurğulayıb.**

Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90 faizdən çoxunun başa çatdırıldığını bildirən Prezident sənədin qalan hissəsinin də yekunlaşacağına ümidvar olduğunu ifadə edib. Ölkə rəhbəri Azərbaycanın Avropa İttifaqının 9 üzv dövləti, yəni quruma üzv ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlığa dair sənədlər imzaladığını bildirib. İkitərəfli əsasda imzalanmış bu strateji tərəfdaşlıq sənədlərinin əlaqələrimizin xarakterini nümayiş etdirdiyini deyib. Prezident qeyd edib ki, Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Dövlət başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlığa da toxunub. Qeyd edib ki, Azərbaycan qazı artıq Avropa İttifaqının üç ölkəsinə - İtaliya, Yunanıstan və Bolqarıstana çatdırılır. Gələcəkdə Azərbaycanın istehsal etdiyi qazın ixrac coğrafiyasını Avropa İttifaqının digər üzv ölkələrinə genişləndirmək niyyətindədir. Məlumat üçün deyək ki, Brüsseldə keçirilmiş Şərq Tərəfdaşlığı ölkələrinin sammitinin yekununda bəyannamədə də qəbul edilib. Bəyanatda vurğulanıb ki, Avropa İttifaqı Azərbaycanla yeni hərtərəfli saziş üzrə davam edən danışıqlarda irəliləyişi alqışlayır: "Aİ həmişəki kimi bütün Şərq Tərəfdaşlarının beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Məqsədimiz Şərq Tərəfdaşlığı regionunda əlaqələrin və nəqliyyat əlaqəsinin möhkəmlənməsi də daxil olmaqla əməkdaşlığı genişləndirməkdir".

**Aİ-Azərbaycan əlaqələri ilə bağlı "Şərq"ə danışan siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Avropa İttifaqı ilə əməkdaşlığı inkişaf etdirmək rəsmi Bakı üçün çox önəmlidir. Professorun sözlərinə görə, bu məqam ilk növbədə Azərbaycanın siyasi suverenliyinin zəmanəti deməkdir:** "Sazişin imzalanması baş tutarsa, Azərbaycan Avropa qaydaları ilə idarə olunacaq və bununla da ölkəmizə qarşı ittihamlara son qoyulacaq. Nəzərə alaq ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Sazişdən sonra Azərbaycan daha böyük və daimi Avropa bazarına çıxış əldə edəcək. Ölkəmizin strateji inkişaf istiqamətlərindən biri idxalı azaltmaq, ixracı isə artırmaqdır. Bunun üçün bizə müasir texnologiya, innovativ idarəetmə sistemi lazımdır və bu yöndə Avropa təcrübəsindən yararlana bilərik. İşğaldan azad etdiyimiz ərazilərdə azad ticarət zonalarının yaradılmasına başlamışıq, aqro və texnopolislərin layihələri hazırlanıb. Qeyd edim ki, 2004-cü ildə Təhlükəsizlik haqqında konsepsiya qəbul etmişik. Konsepsiyanın üç istiqamətindən ikisi Avropaya yönəlib. Bunlar - avrosentrizm və avroatlantizmdir. Burada Qərbi və ya Mərkəzi Avropaya inteqrasiya nəzərdə tutulur. Bu da Azərbaycan üçün siyasi-iqtisadi sahədə böyük əhəmiyyətə malikdir.

Azərbaycan Asiyanın Avropaya açılan qapısıdır. Asiyanın resurslarından yararlanmaqla, Avropanın innovativ idarəetmə metodlarını, texnologiyalarını ölkəmizdə tətbiq etmək imkanı qazanacağıq".

**C.Nuriyev təəssüflə vurğulayıb ki, Qərb ölkələri zaman-zaman Azərbaycana münasibətdə qərəzli mövqe tutublar:** "30 il ərzində siyasi, iqtisadi, mədəni, hüquqi və ideoloji baxımdan Qərbin ədalətsiz yanaşmasından çox əziyyət çəkmişik. Əfsuslar olsun ki, bu münasibət hələ qalmaqdadır. Dövlət başçısı İlham Əliyev "Qarabağ" futbol komandasının üzvlərini qəbul edərkən bu məqama da toxundu. İnanırıq ki, son dönəmlər baş verən kifayət qədər ciddi hadisələrdən və yeni görüşlərdən sonra Avropanın Azərbaycana baxışı müsbət yöndə dəyişəcək. Avropa İttifaqının Azərbaycanla əlaqəsi ölkəmizi siyasi-hüquqi cəhətdən də qoruyacaq, təzyiqləri neytrallaşdıracaq. Həlalik karbo-hidrogen yataqlardan əldə etdiyimiz enerji resursları ilə Avropa ilə əməkdaşlıq edirik. Lakin Avropaya təqdim edəcəyimiz məhsulların sayı çoxdur. Avropa İttifaqı Qafqaz siyasəti ilə bağlı Azərbaycanla əməkdaşlığa ehtiyac duyur. Azərbaycan da Avropa İttifaqı ilə əlaqələrin inkişafında maraqlıdır və bunu hər dəfə açıq bəyan edir".

İsmayıl Qocayev



# Bakının tələbləri qəbul olunur

## Paşinyan Azərbaycanla razılaşmanın ən doğru yol olduğunu ölkəsində də söylədi

**Brüsseldən Ermənistana qayıdan Nikol Paşinyan hökumətin iclasında Azərbaycanla razılaşmalardan danışıb. Baş nazir bildirib ki, rəsmi Bakı ilə razılaşmalar regionun simasını dəyişə bilər:**

"Azərbaycan Prezidenti İlham Əliyev ilə dəmir yolunun tikintisi ilə bağlı əldə olunan razılaşmalar onların icrası zamanı regiondakı siyasi, iqtisadi mühiti, eləcə də təhlükəsizlik mühitini dəyişəcək. Razılaşmaları qiymətləndirməmək mümkün deyil. Bu, mühüm razılaşmadır və ümid edirəm ki, biz onu dəqiqliklə yerinə yetirəcəyik".

Paşinyan qeyd edib ki, Prezident İlham Əliyevlə Brüsseldə keçirilən görüşdə Yeraşx-Culfa-Ordubad-Meğri-Horadiz dəmir yolunun tikintisi ilə bağlı razılıq əldə olunub: "Yaxın vaxtlarda bu məsələnin həllinə köklənmək lazımdır. Onu da bildirim ki, gündəlikdəki ikitərəfli məsələlər barədə təmasların Azərbaycan Prezidenti İlham Əliyevlə davam etdirilməsi barədə razılıq əldə edildi. Tərəflər ümumi yanaşma və baxış bucağı formalaşdırmaq, həmçinin fikir ayrılıqlarını aradan qaldırmağa çalışacaqlar".

> "Baş nazir qərarları öz iradəsi ilə vermir və bəlli dairələrdən təlimatlar alır"

Xatırladaq ki, Prezident İlham Əliyev Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində çıxışı zamanı vurğulayıb ki, əvvəlki illərdə Ermənistan rəhbərliyi adətən beynəlxalq tədbirlər zamanı Azərbaycana qarşı əsassız, ittiham xarakterli çıxışlar edirdi. Bu dəfə həlın baş verməyini müsbət qiymətləndirən dövlət başçısı Ermənistana qarşı fikir səsləndirmədiyini qeyd edib. Ölkə rəhbəri bəyan edib ki, bu, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün münbit zəminin yarandığını göstərir.

Bir sıra ekspertlərin fikrincə, bundan sonra liderlərin görüşü intensivləşəcək və bu da müəyyən məsələlərdə kiçik də olsa irəliləyişə səbəb olacaq.

**Paşinyanın mövqeyini "Şərq"ə təhlil edən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib ki, Azərbaycan və Ermənistan rəhbərlərinin görüşlərdən sonra verdiyi açıqlamalar ümumi prosesin mahiyyətini ortaya qoyur.** Analitik bildirib ki, Brüssel görüşündən sonrakı mərhələdə tərəflər arasında təmaslar intensiv hal alacaq: "Brüssel görüşü bir neçə vacib məqamı gündəmə gətirdi. Birincisi, bəlli oldu ki, Azərbaycan-Ermənistan münasibətlərinin və problemlərin çözülməsində Rusiya dominant deyil. Paşinyan həm də Qərb ölkələrinin maraqlarını nəzərə almağa və onların fikirləri ilə hesablaşmağa çalışır. İkincisi isə regionda yeni münasibətlər sistemi qurulur və rəsmi Bakının tələbləri qəbul olunur. Zəngəzur dəhlizinin açılması yönündə atılan addımlar, dəmir yolu ilə bağlı konkret anlaşma və pozitiv açıqlamalar bunu göstərir. Kommunikasiya ilə bağlı məsələlərin həllinin daha da sürətlənəcəyi gözlənilir. Onda sonra iqtisadi əlaqələrin qurulması mümkün olacaq. Əlbəttə, Nikol Paşinyan qərarları öz iradəsi ilə vermir və bəlli dairələrdən təlimatlar alır. Lakin Azərbaycan rəhbərliyinin uğurlu və qətiyyətli diplomatik gedişləri müsbət nəticəsini verməkdədir. Paşinyan komandası və erməni xalqı yaxşı başa düşür ki, bataqlıqdan qurtulmaq üçün yeganə xilas yolu Azərbaycan və Türkiyə ilə əməkdaşlıqdan keçir".



# "Brüssel görüşü effektli nəticə verib"

## Samir Hümbətov: "Brüssel danışıqlarının Soçi görüşündən daha məhsuldar olduğunu demək mümkündür"

**"15 dekabrda Aİ-nin "Şərq Tərəfdaşlığı" Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında Aİ-nın rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə görüşü baş tutub.**

Əvvəldən təxmin edildiyi kimi Paşinyan üçün Soçi görüşündən daha çox Brüssel görüşü vacib əhəmiyyətə malik hesab edilir. Ona görə də Paşinyan Putinin iştirakı ilə olan görüşdə danışa bilmədiyini Şarl Mişelin yanında daha rahat söyləməyi üstün tutub".

**Bu barədə "Şərq"ə politoloq Samir Hümbətov bildirib. O qeyd edib ki, görüşdən öncə Azərbaycan prezidentinin NATO-nun baş katibi Yens Stoltenberq ilə keçirdiyi mətbuat konfransında Şarl Mişelin təşkilatçılığı ilə N.Paşinyanla görüşdə müzakirə olunan mövzuların detallarına toxunub, bəzi mesajlar verib:** "Ölkə başçısı jurnalistlərin suallarını cavablandırarkən bildirib ki, Ermənistandan keçməklə Azərbaycan və Naxçıvanı birləşdirən quru yolun kağız üzərində təsviri üçtərəfli bəyannamədə tam şəkildə qeyd edilməyib. Bu məsələ gələcəkdə müəyyən ediləcək. Ölkə başçısı Zəngəzur dəhlizinin funksiyası məsələsinə də toxunaraq vurğulayıb ki, bu dəhliz Laçın koridoru ilə eynifunksiyalı və eynihüquqlu olacaq. Yəni Ermənistan tərəfindən Zəngəzur dəhlizində gömrük postu qoyulacaqsa, Laçın dəhlizində də Azərbaycan tərəfi gömrük keçid məntəqəsi quracaq.

Eyni zamanda ölkə lideri bəyan edib ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqələrin təhlükəsizliyini təmin edəcəyi ilə bağlı təminat verir.

Bu da onu göstərir ki, tərəflər arasında qarşılıqlı etimadın və güvənin qurulması üçün Azərbaycan tərəfi istənilən addımı atmağa hazırdır".

Ekspert görüşdən sonra Ermənistan baş nazirinin danışıqların nəticəsi ilə bağlı fikirlərinə də diqqət çəkib: "N.Paşinyan bildirib ki, Ermənistandan keçməklə Azərbaycan və Naxçıvanı birləşdirən quru yollarının açılması barədə razılıq əldə etdik. O həmçinin bunu da əlavə edib ki, dəmir yolları vasitəsi ilə Rusiya və İrana çıxış da əldə etmiş oluruq. Eyni zamanda biz ünsiyyəti davam etdirmək barədə də razılığa gəldik".

Politoloqun qənaətincə, tərəflər arasında görüşlərin keçirilməsi təkcə Rusiyanın deyil, eyni zamanda Aİ-nin da vasitəçiliyi ilə aparıla bilər: "Rusiyanın tələsik şəkildə Soçi görüşünü təşkil etməsinə baxmayaraq, Brüsseldəki təmas daha effektli nəticə verib. Bunun isə bir neçə səbəbi var. Birincisi, Paşinyan üçün qərbin daha etibarlı olması və əsas dəstəyini qərbdən alması.

İkincisi, Brüsseldə Putinin təsirinin az olması və daha rahat fikir mübadiləsi aparmaq imkanının əldə edilməsidir. Üçüncüsü, Aİ-dən 2,6 milyarda avro yardım almağı düşünür və buna görə də orta razılığa gəlməyə məcbur olur.

Ermənistanla bağlı məsələlərdə Rusiyanın dominantlığını azaltmaq üçün Qərbin də proseslərə cəlb edilməsidir. Təbii ki, Azərbaycan üçün haradan və hansı formatda görüşün keçirilməsi Ermənistan qədər önəmli deyil. Ona görə Azərbaycan istənilən yerdə və istənilən formada görüşə hazır olduğunu atdığı addımlar ilə göstərir.

Bunun da əsas səbəbi Azərbaycanın qalib tərəf olmasıdır. Ehtimal edildiyi kimi Brüssel danışıqlarının Soçi görüşündən daha məhsuldar olduğunu demək mümkündür".

Sücayət Mehti

# Ermənistanın bağlı qapıları açılacaq

## Ankara-İrəvan münasibətləri Bakının razılığı ilə nizama salınır

İsmayıl Qocayev



"Türkiyənin Ermənistan qarşısında qoyduğu şərt yerinə yetirildiyi üçün Türkiyə də müsbət addım atmağa başladı"

**Türkiyə Ermənistanla münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndə vəzifəsinə ABŞ-dakı keçmiş səfiri Serdar Kılıcı təyin edib. Bu barədə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu məlumat verib. Çavuşoğlu qeyd edib ki, Ermənistanla münasibətlərin normallaşdırılması prosesi üzrə işlər Azərbaycanla koordinasiya olunaraq aparılır:**

"Biz Azərbaycan ilə hər bir məsələdə öncədən məşvərət edirik və Azərbaycanın məlumatı olaraq bu cür addımları atırıq. Kimsə Azərbaycandan xəbərsiz, ya da ayrı hərəkət edərikmi deyə sorğulamasın. Biz bir millət, iki dövlətik. Bunlar xeyirli addımlardır, hamımıza faydası olacaq". XİN rəhbəri bəyan edib ki, yaxın günlərdə İstanbul-İrəvan reysi üzrə uçuşlar həyata keçirəcək şirkətlər də müəyyənləşəcək: "Ankara Türkiyə və Ermənistan aviaşirkətlərinin İstanbul-İrəvan-İstanbul reysinin açılması ilə bağlı müraciətlərini nəzərdən keçirir. Prinsip etibarilə Türkiyə tərəfinin məsələyə münasibəti müsbətdir". Məlumat üçün bildirək ki, Serdar Kılıc təcrübəli diplomat kimi tanınır. Amerikadan əvvəl, Livanda və Yaponiyada Türkiyənin səfiri olub. Bəzi ekspertlərin fikrincə, erməniləri kifayət qədər yaxşı tanıyan Kılıcın özəl təmsilçi təyin edilməsi uğurlu təyinatdır. Bu arada ABŞ dövlət katibi Entoni Blinken "Tvitter" hesabındakı paylaşımda Ankara-İrəvan yaxınlaşması yönündəki addımları yüksək qiymətləndirib. Blinken deyib ki, Vaşinqton iki dövlət arasında əlaqələrin normallaşmasında maraqlıdır. Məsələ Ermənistan cəmiyyətində də ciddi müzakirə olunmaqdadır. Politoloq Suren Sarkisyan deyib ki, Ermənistan öz tarixində ilk dəfə olaraq Türkiyənin bütün ilkin şərtlərini qəbul edib. Ekspert Türkiyə və Ermənistanı barışdırmaq üçün ABŞ-ın da fəallaşdığını bildirib: "1992-ci il yanvarın 6-dan Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması Amerikanın xarici siyasətində prioritet məsələdir. Vaşinqton siyasətinin intensivləşməsi bununla bağlıdır. İndi hamımız Türkiyə və Azərbaycanla barışmağa razı olacağıq". Sarkisyan Ermənistan rəhbərliyinin bunun üçün Qarabağ iddiasından da əl çəkdiyini iddia edib.

Son proseslər, o cümlədən kommunikasiyaların açılması barədə danışıqlar Ankara-İrəvan münasibətlərinin yeni mərhələsindən xəbər verir. Ermənistan tədricən anlamağa başlayır ki, onun üçün ən ideal variant məhz konstruktiv mövqe sərgiləməkdir. Əks halda sadəcə Rusiya ilə Qərb arasında manevr etməklə nəyəsə ola bilməyəcəyini başa düşür.

**Siyasi şərhçi Elman Vəliyev "Şərq"ə açıqlamasında bildirib ki, 1992-93-cü illədək, yəni Ermənistan Azərbaycan torpaqlarını işğal edənə kimi Ankara-İrəvan münasibətləri, ən azından iqtisadi əlaqələr nizamlı idi. Analitik qeyd edib ki, Ermənistanın iqtisadi kəsirlərinin çox hissəsini Türkiyə ödəyirdi:** "Türkiyə Ermənistana qeyri-neft sektoru məhsulları ixrac edirdi. Amma iş sərhədlərin bağlanması nöqtəsinə çatanda Ermənistan üçün qara günlər başladı. Nəhayət, 30 ilə yaxın bir zaman kəsiyindən sonra iki tərəf diplomatik danışıqlara başladı. Türkiyənin bu addımı atması üçün bir şərti var idi ki, o da Ermənistanın Azərbaycanla uzlaşmaya getməsi idi. Ermənistan tərəfi Türkiyə ilə əlaqələri bərpa etmək üçün Rusiyadan dəfələrlə rica eləmişdi. Dekabrın 10-da Moskvada Türkiyənin irəli sürdüyü "3+3" formatının ilk iclası keçirildi. Hesab edirəm ki, bu iclasda Türkiyə ilə Ermənistan münasibətləri də müzakirə predmeti olub. Bu görüşdən sonra Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu bəyan etdi ki, iki tərəf arasında çarter uçuşları bərpa ediləcək. Həmçinin, Türkiyə tərəfi Ermənistanla əlaqələri sabitləşdirmək üçün sabiq ABŞ səfiri Serdar Kılıcı nümayəndə təyin etdi. 26 noyabrda Soçidə üçlü görüş oldu, tərəflər arasındakı problemlərin həlli istiqamətində mühüm addımlar atıldı. Delimitasiya və demarkasiya proseslərinin başlanması, kommunikasiyaların açılması problemlərinin həll edilməsi barədə razılığa gəlindi. Türkiyənin Ermənistan qarşısında qoyduğu şərt yerinə yetirildiyi üçün Türkiyə də müsbət addım atmağa başladı".

*E.Vəliyev vurğulayıb ki, bölgənin geosiyasi mənzərəsi tamam fərqlidir:* "Ermənistanda Rusiya əleyhinə nifrət formalaşır. İnsanlar anlayırlar ki, illərdir Ermənistanı kimlər müharibəyə təhrik edib. Əgər İrəvan hökuməti Türkiyə ilə münasibətləri yeni mərhələyə keçirə bilsə, Ermənistan üçün uğurlu olacaq. Fikrimcə, iki tərəf arasında dialoqların intensivləşməsi üçün Rusiya da mühüm rol oynayacaq".

# Qatar çoxdan gedib

## Makron İlham Əliyevin qarşısında Paşinyana güzəşt tələb edə bilməz





**Ötən gün Brüsseldə Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü fonunda Azərbaycan lideri İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş baş tutub. Görüşün detalları ilə bağlı ətraflı məlumat olmasa da, üç lider arasında axşam saatlarında keçirilən görüşün təqribən 1,5 saat davam etdiyi bildirilib.**

Maraqlı məqamlardan biri də odur ki, Makron Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə üçtərəfli görüş keçirilən gün Rusiya rəhbəri Vladimir Putinlə telefon əlaqəsi saxlayıb. Tərəflər telefon zəngi zamanı Azərbaycan-Ermənistan məsələlərini müzakirə ediblər. Kremlin məlumatında bildirilib ki, Putin Makronu 26 noyabr 2021-ci il Soçi görüşü haqda məlumatlandırıb. Putin eyni zamanda ”qaçqınların qayıtması, ticari-iqtisadi və kommunikasiya əlaqələrinin bərpası istiqamətində” iş aparıldığını bildirib. Liderlər müzakirə olunan məsələlər barədə növbəti dəfə danışmaq barədə razılaşıblar. Fransanın mövqeyi aydındır. Çox güman ki, Makron görüş təşəbbüsündə problemin həllindən daha çox İrəvanı müdafiə məqsədi güdürmüş. Makronun görüşdən sonra atdığı tvit də bunu deməyə əsas verir. Fransa prezidenti görüşdən dərhal sonra sosial şəbəkədə belə yazıb: ”Erməniləri heç vaxt tək qoymayacağıq”.

**Brüsseldə Fransanın vasitəçiliyi ilə baş tutan qeyri-rəsmi görüşü ”Şərq”ə dəyərləndirən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev hesab edir ki, Makronun təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında reallaşan qısa görüşdə hansısa ciddi məsələnin müzakirə edildiyi inandırıcı deyil.** Partiya təmsilçisi bildirib ki, hər zaman ermənipərəst mövqeyi ilə ön plana çıxan Makron Prezident İlham Əliyevin qarşısında Paşinyan üçün güzəşt tələb edə, baş nazirin müdafiəsinə qalxa bilməz: ”Makronun ən yaxşı bacardığı şey Azərbaycan liderinin olmadığı bir məkanda ölkəmiz əleyhinə söz demək, Ermənistanı müdafiə etməkdir. **Fransa prezidenti ancaq görüşdən sonra ”erməniləri heç vaxt tək qoymayacağıq” deyə bilərdi.** Özü də bunu siyasi təmaslarda açıq səsləndirmir, sadəcə, sosial şəbəkə hesabından yazır. Lakin artıq Paşinyana ”sevgi” tvitlərinin heç bir mahiyyəti yoxdur. Qatar çoxdan gedib və ermənilər təkləniblər. Çox yaxın gələcəkdə Azərbaycan bölgədə mövqelərini daha da gücləndirəcək və Qarabağ bütünlüklə nəzarətimizə keçəcək”.

**Politoloq bəyan edib ki, Brüsseldə müxtəlif variantlı görüşlərdən sonra verilən bütün açıqlamalarda münaqişənin bitdiyi və bundan sonra sülh şəraitində yaşamağın yolları barədə danışıldı:** ”Bu, o deməkdir ki, NATO və Avropa İttifaqı Azərbaycanla keçmişdə olduğu kimi təzyiq və tələblə deyil, tərəfdaş və qalib ölkə kimi davranmağa başlayıb. Bu ritorika Şarl Mişel və hərbi alyansın baş katibi Y.Stoltenberqin bəyanatında açıq göründü. Həmçinin, imzalanan sənədlərdə və bəyanatlarda Qarabağın hər hansı ”statusa” malik olması barədə bir kəlmə də yazılmadı. Naxçıvan istiqamətində kommunikasiyaların açılması hər iki tərəfi qane edən ciddi uğur oldu. Bu variant bizə Qarabağda tam nəzarəti həyata keçirmək üçün gözəl fürsət verdi. Prezident lham Əliyevin görüş öncəsi kommunikasiyaların açılması məsələsində qoyduğu şərt danışıqların mahiyyətinə və istiqamətinə ciddi təsir etdi. Növbəti mərhələdə Laçın rayonuna tam nəzarəti həyata keçirmək üçün fəaliyyətimizi davam etdirməliyik”.

**İsmayıl Qocayev**

# "Danışıqlar masası dəyişilməlidir"

## Asif Nərimanlı:

“Zelenski Rusiya tərəfindən saxlanılan Ukrayna hərbçilərinin qaytarılmasında Azərbaycanın vasitəçi olmağını istəyir”



**Dekabrın 15-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Vladimir Zelenski ilə görüşü olub. Söhbət zamanı hökumətlərarası komissiyanın fəaliyyəti, biznes dairələrinin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, xüsusilə enerji sahəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb.**

Vladimir Zelenski İlham Əliyevi Ukraynaya səfərə dəvət edib. O, Azərbaycanın Ukraynanın ərazi bütövlüyünü, suverenliyini dəstəklədiyinə görə İlham Əliyevə təşəkkür edib.

MDB məkanında Azərbaycanın əsas strateji müttəfiqlərindən biri Ukraynadır. Azərbaycanla Ukrayna arasında nə dəniz, nə də quru sərhədlərin olmamasına baxmayaraq, iki ölkə arasındakı strateji müttəfiqlik münasibətləri durmadan möhkəmlənir və genişlənir. Tarixə nəzər salsaq, Ukrayna ilə Azərbaycan arasında diplomatik münasibətlər 31 yanvar 1992-ci ildə qurulub. Ölkələr arasındakı münasibətlər sürətlə inkişaf edib. İlham Əliyev prezident seçildikdən sonra Azərbaycan-Ukrayna münasibətlərinin intensiv dinamikası artıb.

**Ukrayna-Azərbaycan ölkə rəhbərlərinin Brüsseldəki görüşünü şərh edən siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə bildirib ki, Zelenski Ukrayna-Rusiya münaqişəsinin həll edilməsində Azərbaycanın vasitəçi olmağını istəyir:** ”Əvvəla qeyd edim ki, Ukrayna ilə Azərbaycan arasında kifayət qədər yaxşı münasibətlər var. Brüsseldə ”Şərq Tərəfdaşlığı” çərçivəsində iki ölkə başçısının görüşü təbiidir. Rəsmi Kiyev Moskva ilə arasındakı münaqişəyə son qoymaq üçün ciddi addımlar atır. Rəsmi Ankara bildirib ki, bu münaqişənin həllində vasitəçi olmaq istəyir. Növbəti ilin əvvəlində Ərdoğanın Ukraynaya səfərində bu məsələnin müzakirə ediləcəyi gözlənilir.

Vladimir Zelenski İlham Əliyev görüşündə Bakı və Ankaranın Ukrayna-Rusiya münaqişəsində vasitəçi olmağı məsələsinin müzakirə edildiyi güman edilir. Görüşdə münaqişənin həlli üçün İlham Əliyevdən kömək istəniləcəyi ehtimal edilir.

Həmçinin Zelenski Rusiya tərəfindən saxlanılan Ukrayna hərbçilərinin qaytarılmasında Azərbaycanın vasitəçi olmağını istəyir. Azərbaycan humanitar məsələlərin həllində də vasitəçilik edə bilər. Rəsmi Bakı Moskva ilə daha yaxşı təmaslara malikdir. Fikrimcə, Azərbaycan tərəfi bu məsələni Rusiyaya çatdıracaq.

İllər əvvəl münaqişənin həlli üçün Qərb-Ukrayna-Rusiya masası yaradılmışdı. Lakin bu heç bir effekt vermədi. Ukrayna da bunu anlayır. Rusiya da maraqları çərçivəsində münaqişənin həll edilməsini istəyir. Ukrayna-Rusiya münaqişəsinin həll edilməyi üçün masanın dəyişilməsi lazımdır. Bu yalnız Türkiyə və Azərbaycanın quracağı masa ilə həll edilə bilər. Ən azından müəyyən irəliləyişin olması mümkündür”.

**Xanlar Əlibəy**




# Ancaq sülh sazişinə töhfə verə bilərlər

## Prezident həmsədrlər üçün daha real müzakirə gündəliyi təklif etdi

**Prezident İlham Əliyev Brüsseldə mütəmadi gündəmə gətirilən ATƏT-in Minsk qrupu ilə bağlı rəsmi Bakının mövqeyini bir daha bəyan edib. Dövlət başçısı həmsədrlərin roluna toxunaraq 28 il ərzində aparılan danışıqlarda hər hansı bir nəticənin hasil olmadığını diqqətə çatdırıb. Ölkə rəhbəri Azərbaycanın ATƏT-in Minsk qrupundan yeni geosiyasi reallığa uyğun cavab gözlədiyini bildirib:**

”Bu xüsusda Azərbaycan tərəfi hesab edir ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası, insanlar arasında təmasların yaradılması, etimad quruculuğu tədbirləri və digər məsələlərdə Minsk qrupu tərəfindən kömək göstərilə bilər”. Minsk qrupunun üzvləri, üçlü həmsədr institutunun yarıtmaz fəaliyyəti və mövqeyi hamıya bəllidir və haqlı olaraq ictimaiyyət tərəfindən qəbul olunmur. Minsk qrupu dedikdə, söhbət ABŞ və Fransadan gedir. Rusiya onsuz da prosesdə əsas vasitəçi rolunda çıxış edir. Bir qrup ekspertə görə, həmsədrlərə sərhədlərin müəyyənləşməsi, etimad mühitinin formalaşması və s. humanitar məsələlərdə şans vermək olar. Lakin əksəriyyət birmənalı hesab edir ki, Minsk qrupunun üzvləri ümumiyyətlə bölgəyə yaxın buraxılmamalıdır.

**Siyasi şərhçi Elçin Xalidbəyli “Şərq”ə açıqlamasında deyib ki, ATƏT-in Minsk qrupunun taleyi 44 günlük savaşın nəticələri ilə müəyyən olunub. Analitikin fikrincə, Brüssel görüşündən sonra isə Minsk qrupunun ləğvi ilə bağlı prosesin əsası qoyulmuş oldu**: ”Bu görüşdə Minsk qrupunun vasitəçilik missiyasının bərpa olunmasının vacibliyinə heç bir eyham belə, vurulmadı. Halbuki, son Brüssel görüşünə qədər Ermənistan Baş naziri Nikol Paşinyan hər imkanda ”Dağlıq Qarabağ münaqişəsi” və ”status” mövzularının Minsk qrupu həmsədrlərinin vasitəçilik missiyası çərçivəsində müzakirə olunmasının vacibliyini vurğulayırdı. Ancaq bu dəfə erməni baş naziri Minsk qrupu ilə bağlı ənənəvi mövqeyinin üzərindən sükutla keçməli oldu. Yəni belə anlaşıldı ki, Minsk qrupu artıq heç kimə lazım deyil və bu qurumun fəaliyyəti də hazırda formal xarakter daşıyır. Bu baxımdan, yaxın vaxtlarda Minsk qrupunun ləğv oluna biləcəyi də qətiyyən istisna deyil. Məsələ ondadır ki, Minsk qrupu 30 ilə yaxın bir müddətdə öz vasitəçilik missiyasının öhdəsindən gələ bilməyib. Onun yerinə yetirə bilmədiyi missiyanı Azərbaycan Ordusu cəmisi 44 gün ərzində sona çatdırıb. Üstəlik, yeni geopolitik reallıq və regionda yeni şərtlər ortaya çıxıb. Belə vəziyyətdə Minsk qrupu yeni geopolitik sistemə də uyğun gəlmir. Çünki Minsk qrupu ”Dağlıq Qarabağ münaqişəsi”nin sülh danışıqları yolu ilə həll edilməsi məqsədilə yaradılmışdı. Bu problem isə həm hərbi yolla həll olunub, həm də ”status” mövzusu gündəmdəm çıxarılırb. Hazırda Minsk qrupu qarşıduran tərəflər arasında vasitəçilik etmək üçün müzakirə mövzusuna malik deyil”.

*E.Xalidbəyli vurğulayıb ki, Minsk qrupunun gələcək taleyində Azərbaycanın mövqeyi böyük rol oynayır:* ”Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupuna yeni geopolitik reallıqları xatırlatması da bunu təsdiqləyir. Belə anlaşılır ki, rəsmi Bakı Minsk qrupuna keçmişə yönəlik və artıq əhəmiyyətini tamamilə itirmiş müzakirə mövzularını aktuallaşdırmaq cəhdinə imkanı vermək niyyətində deyil. Ona görə də Prezident həmsədrlər üçün yeni müzakirə gündəliyi də təklif etdi. Dövlət başçısı diplomatik şəkildə Azərbaycan üçün əhəmiyyətini itirmiş mövzuların müzakirəsinə ehtiyac duyulmadığına eyham vurdu. Eyni zamanda, Minsk qrupu həmsədrlərinə Ermənistanla Azərbaycan arasında sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası, insanlar arasında təmasların yaradılması, etimad quruculuğu tədbirləri kimi mövzulara yönəlməyin mümkünlüyünə işarə etdi. Bununla da Minsk qrupu üçün yeni mövzular və gündəlik müəyyən edilmiş oldu. Ancaq Minsk qrupunun həmin yeni gündəliyə uyğunlaşması və sadalanan mövzular üzərindən öz fəaliyyətini bərpa edə bilməsi də qətiyyən inandırıcı görünmür. Çünki Rusiya Cənubi Qafqaz regionuna ABŞ və Fransanın müdaxilə imkanları qazanmasını istəmir. Ona görə də böyük ehtimalla Kreml Minsk qrupunun fəaliyyətinin bərpasına yönəlik cəhdlərin aktiv fazaya keçirilməsinə imkan verməyəcək. Rusiya Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanması, sərhədlərin demarkasiyası və delimitasiyası prosesində regiondankənar ölkələrin iştirakına müqavimət göstərir. Hətta sərhədlərin delimitasiya və demarkasiyası üçün xəritələr təqdim etməklə yanaşı, texniki dəstək də verməyə hazır olduğunu vurğulayan Kreml Cənubi Qafqazda gedən proseslərdə başqalarına ehtiyac olmadığını qabardır”.

**Politoloq bəyan edib ki, bütün bunlar onu göstərir ki, Minsk qrupu öz fəaliyyətini bərpa etmək üçün həm Azərbaycanla, həm də Rusiya ilə anlaşmaq məcburiyyətindədir:** ”Rəsmi Bakı keçmişə dönüş qapılarını bərk-bərk qapatmaqla yanaşı, Minsk qrupuna ”yeni fəaliyyət tezisləri” və ”qırmızı cizgilər” müəyyən edib. Yəni Azərbaycan Minsk qrupunun həmin ”qırmızı cizgilər”dən kənara çıxmasına imkan verilməyəcəyini gizlətmir. Böyük ehtimalla rəsmi Bakının gündəmə gətirdiyi həmin təklif siyasi-diplomatik manevr xarakteri daşıyır. Hər halda, Minsk qrupunun həmsədrlərindən olan Rusiya bu qurumun digər iki həmsədrini - ABŞ və Fransanı regiona buraxmaq niyyətində deyil. Yəni Kreml Minsk qrupunda təmsil olunan Rusiyanın vasitəçilik missiyasına ortaq arzulamır. Bu baxımdan, Minsk qrupu həmsədrlərinin hansısa formada öz fəaliyyətini bərpa etməyə nail ola biləcəyi qətiyyən inandırıcı deyil”.

**İsmayıl Qocayev**

# Kreml İrəvanın nəzarətdən çıxmasını heç vaxt istəməz

## “Zaxarovanın açıqlamasında sətiraltı mənalar olmamış deyil”



**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib ki, Moskva Ankara və İrəvanın münasibətləri normallaşdırmaq niyyətini alqışlayır. O bildirib ki, regionda ümumi vəziyyətin sağlamlaşması naminə Rusiya bu prosesə kömək etməyə hazırdır.**

Diplomat bu niyyətin reallaşması üçün xüsusi nümayəndələrin təyin edilməsinin ağlabatan addım oluğunu və rəsmi Moskvanın bu prosesə hər şəkildə kömək etməyə hazır olduğunu diqqətə çatdırıb.

Maraqlıdır, rəsmi Moskva Türkiyə-Ermənistan münasibətlərinin yaxşılaşmasında göstərdiyi təşəbbüsdə nə dərəcə səmimidir?

**Rusiyanın əlində olan bütün mümkün variantlarla Ermənistanı nəzarətdə saxlamağa çalışdığını deyən analitik Turab Rzayev ”Şərq”ə bildirib ki, Kreml rəsmi İrəvanın asanlıqla nəzarətdən çıxmasını istəməz:**

”Rəsmi Moskva hazırda Avropa İttifaqı ilə, xüsusilə də Fransa ilə mübarizə aparır. Paşinyanın sırf Avropa İttifaqının (Aİ) Brüsseldə təşkil etdiyi görüşdə iştirak edəcəyinə görə Rusiya onu məcbur Soçiyə çağırıb masada oturtdu. Və ona öz şərtlərini diktə etdi. Belə bir şəraitdə rəsmi Moskva Ermənistanla Türkiyə sərhədlərinin açılmasını, rəsmi Ankaranın Ermənistan üzərində siyasi və iqtisadi aktivliyinin artmasını istəməz”.

*Analitik rəsmi İrəvanın Türkiyə ilə yaxınlaşacağı təqdirdə onun Rusiyaya ehtiyacı qalmayacağını vurğulayıb və Zaxarovanın burda başqa bir ismarıc vermək istədiyini söyləyib:* ”O, istənilən halda Ermənistan bizim nəzarətimiz altındadır və icazəmiz olmadan rəsmi İrəvan heç bir addım ata bilməz mesajını verir. Yəni Ermənistanın Türkiyə ilə əlaqə qurması yalnız bizim razılığımız ilə mümkün ola bilər. Əslində bu açıqlama xoş niyyətdən daha çox region bizim nəzarətimizdədir, biz istəmədən burda heç nə ola bilməz xəbərdarlığı təəssüratını bağışlayır”.

**Günəş Mərd**

# Ustalar yetişməlidir

## Ölkəyə hibrid avtomobillərin gətirilməsi artacaqsa, infrastruktur da genişlənməlidir



**Hibrid avtomobillərin ölkəyə idxalı və satışı növbəti ildən vergidən azad edilir. Bu barədə məsələ Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə öz əksini tapıb. Məcəlləyə təklif edilən dəyişikliyə əsasən, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı üçün 2022-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV tutulmayacaq.**

Bundan əlavə, elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı üçün 2022-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV tutulmayacaq.

Avtomobil həvəskarlarını və avtomobil sahibi olmaq istəyənləri sevindirən dəyişiklikdir. Paytaxtda son zamanlar hibrid avtomobillər də çoxalmağa başlayıb. Həm yanacaq, həm də elektriklə işləyən bu avtomobillər sərfəli hesab olunur. Müasir dizaynlı olmaları, rahatlıqları da əlavə üstünlükdür. Qalır, avtomobillərin təmiri, enerjidoldurma məntəqələri, hibrid avtomobillərə bələd - ”başı çıxan” ustalar məsələsi. Tutalım, hibrid avtomobilin təmirinə ehtiyac yarandıqda, ehtiyat hissələr, təmir edə biləcək maşın ustası tapılacaqmı? Nəqliyyat məsələləri üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov bu barədə Trend-ə danışıb. Ekspert bildirib ki, ölkəmizdə sürücülərin istifadə etdikləri hibrid avtomobillərinin çoxunun elekrtik cərəyanına qoşulmasına ehtiyac yoxdur: ”Hibrid avtomobillərin başqa modeli isə cərəyana qoşula bilir. Elektromobil və hibrid avtomobillərin istismarı üçün eyni şərait lazımdır. Belə ki, həmin avtomobilləri kənardan elektrik enerjisi ilə doldurmaq üçün yerlər olmalıdır. Bu avtomobillər üçün xüsusi enerji doldurma qurğuları lazımdır. Hazırda ölkəmizin bir neçə şəhər və rayonlarında sürətli enerji doldurma məntəqələri var. Elektromobil və hibrid avtomobillərin sayı artdıqca belə məntəqələrin sayının artmasına gətirib çıxaracaq. Lakin belə avtomobillərin ehtiyat hissələrinin, servis xidmətinin, usta bazası ölkəmizdə hələ tam formalaşmayıb. Elektromobil və hibrid avtomobillərə qulluqda əsas hədəflərdən biri də texniki qulluğu bacaran ustalar yetişdirməkdir. Düşünürəm ki, növbəti ildən Azərbaycana idxal edilən bir sıra hibrid avtomobillərin idxalı və satışı vergidən azad edildikdən sonra vətəndaşların bu avtomobilləri almağa marağı artacaq”.

**Nəqliyyat məsələləri üzrə ekspert Əziz Talıbov da ”Şərq”ə açıqlamasında elektromobil, ya da hibrid avtomobillərin ölkəyə gətirilməsi artdıqca, onlara aid infrastrukturun da genişlənməsinə zərurət yaranacağını bildirdi:**

- Yapon, alman istehsalı hibrid avtomobillər var ki, etibarlıdırlar, sərfəlidirlər. Fərq bundadır ki, bu maşınlar həm yanacaqla hərəkət edir, həm də elektriklə. Bu avtomobillərin daxili yanma mühərriki elektrik mühərrikidi. Elektromobillər isə yalnız elektriklə hərəkət edir. Hibrid ötürmə müxtəlif enerji mənbələri ilə işləyən iki mühərrikin bir məqsəd üçün birləşdirilməsidir. Avtomobilqayırmada benzin və elektriklə işləyən mühərriklərin inteqrasiyası, velosipedlərdə elektrik mühərrikinin əzələ ilə işləyən mexanizmlə birləşməsi buna misaldır. Hibrid mühərrikləri ilə işləyən avtomobillərin yaranması yanacağa qənaət etmək məqsədi daşıyır. Bu yolla qalıq (fosil) yanacaqlardan asılılığı azaltmağa çalışırlar. Digər aspekt ətraf mühitə vurulan ziyanın azaldılmasıdır. Hibrid güc ötürməsində mühərriklər ya paralel, ya da gücdən asılı olaraq birləşmə prinsipi ilə işə qoşulur. İkinci halda ötürmə daxili yanma mühərriki ilə bərabər iki elektrik mühərrikindən (generator və mühərrik) ibarət elektrik ötürmə sisteminə malikdir. Daxili yanma mühərrikinin yaratdığı gücün bir hissəsi maşınların transmissiyasına birbaşa, digər hissəsi isə mühərrik-generator-ötürməsi üzərindən ötürülür. Yəni iş zamanı elektrik ötürməsində mexaniki enerji elektrik enerjisinə çevrilir və batareyada yığılır. Kombinasiya olunmuş hibrid ötürməsində mühərriklər muftalar vasitəsilə ayrılaraq paralel və ya fərdi tətbiq oluna bilir. İstənilən halda hibrid avtomobil sərfəlidir. Yanacağa qənaət edilir, ekoloji çirklənmənin qarşısı alınır. Avtomobil sahibinə də sərf edir. Benzinə az pul xərcləyir. Hibrid avtomobil yanacağa 2 dəfə artıq qənaət edir.

**Ə.Talıbov qeyd etdi ki, ölkəyə hibrid avtomobillərin gətirilməsi artacaqsa, infrastruktur da genişlənməlidir:**

- Enerjidoldurma məntəqələrinin sayı artmalıdır, serviz xidməti də genişlənməlidir. Bu avtomobillərə bələd ustalar yetişməlidir.

**Məlahət Rzayeva**



# Paşinyan İrəvana qayıdan kimi Arutyunyanla görüşüb

## Baş nazir razılaşmaların həyata keçirilməsi üçün ona xəbərdarlıqlar edə bilər

**Ermənistan baş naziri Nikol Paşinyan Brüssel görüşünün ardınca Qarabağdakı separatçı tör-töküntülərin terrorçu rəhbəri Araik Arutyunyanı qəbul edib. Görüşün detalları ilə bağlı informasiya verilməyib.**

Xatırladaq ki, Brüsseldə Prezident İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə Qarabağ müzakirə olunmayıb. Rəsmi Bakı Qarabağla bağlı heç bir müzakirə aparmadığını və münaqişənin artıq keçmişdə qaldığını qəti şəkildə elan edib. Bu baxımdan Paşinyanın İrəvana qayıdan kimi terrorçu Arutyunyanla görüşməsi maraq doğurur. Bəzi ehtimallara görə, Paşinyan terrorçu Arutyunyana da mövcud reallığın tamamilə Azərbaycanın lehinə olduğunu, Qərbin Qarabağ söhbətinə yaxın durmadığını izah etmək istəyib.

> “Görünən budur ki, mövqelərin toqquşması mərhələsi özünü mövqelərin uzlaşdırılması mərhələsinə təhvil verir”

**Siyasi şərhçi Aqşin Kərimov da “Şərq”ə açıqlamasında bəyan edib ki, Nikol Paşinyan Araikə vəziyyətin heç də onların xeyrinə olmadığını deyib. Analitik qeyd edib ki, Paşinyan razılaşmaların həyata keçirilməsi üçün Araikə xəbərdarlıqlar edə bilər:** ”Bu qənaəti gücləndirən amil budur ki, Brüssel təmaslarından dərhal sonra Paşinyan xoşməramlı fikirlər səsləndirdi. Üstəgəl, Azərbaycanın güclü hərbi resursu mövcuddur ki, onun bir hissəsini işə salmaqla antiterror əməliyyatları aparsın və separatçıları zərərsizləşdirsin. Təbii ki, bu məsələdə Rusiya ilə də razılıq əldə edilməlidir, axı ortada sülhməramlı faktoru var. Qərbdəki təmaslar Rusiyanın qəzəbinə səbəb ola bilər və onlar yenidən Araik kartını aktiv hala gətirər. Nəzərə alaq ki, Brüsseldə Fransa prezidenti Emmanuel Makronun da təşəbbüsü ilə görüş oldu. Fransanın da mövqeyi bəllidir. Azərbaycan ərazi bütövlüyünü tam formada bərpa etmək niyyətini açıq ifadə edib. Görünən budur ki, mövqelərin toqquşması mərhələsi özünü mövqelərin uzlaşdırılması mərhələsinə təhvil verir. Bununla belə, bu uzlaşdırmada da maraq toqquşması qaçılmazdır”.

**İsmayıl**



# Azərbaycan hazırlaşırmı?

## Dəhşətli istilər gəlir, dünya iqtisadiyyatı 1,6 trilyon dollar itirəcək

**Amerika Dyuk Universitetinin alimləri qlobal istiləşmənin əmək bazarına əhəmiyyətli dərəcədə təsir edəcəyini bildiriblər. Mütəxəssislər dəhşətli istilərin başlaması ilə əlaqədar insanların küçədə uzunmüddətli işdən uzaq duracağını proqnozlaşdırıblar.**

Alimlər belə qənaətət gəliblər ki, əgər Yer kürəsində temperatur iki dərəcədən çox artarsa, o zaman əmək məhsuldarlığının azalmasından iqtisadi itkilər ildə 1,6 trilyon dollara çatacaq.

**Problemin həlli yolları ilə bağlı ”Şərq” açıqlama verən iqtisadçı Natiq Cəfərli bildirib ki, hələ ki yaşıl iqtisadiyyata, bərpa olunan enerjiyə keçiddən başqa həll yolları ilə bağlı ciddi təkliflər səsləndirilməyib:**



Natiq Cəfərli: “Ərzaq, enerji təhlükəsizliyi məsələləri həll edilməlidir, müzakirələr aparılmalıdır”

”Əsas təklif ondan ibarətdir ki, dünyada faydalı qazıntılardan yavaş-yavaş imtina etmək lazımdır. Dünyada ekoloji böhranı və problemləri yaradan əsas amillərdən biri odur. Nəticə etibarilə də yaşıl iqtisadiyyata keçid qlobal istiləşmənin, ekoloji problemlərin qarşısını ala biləcək. Yəni əsas tezisin bundan ibarət olduğunu nəzərə alsaq vəziyyətin birbaşa elə Azərbaycana da təsirləri var. Çünki əgər Avropa birliyi ölkələrinin, Amerikanın və hətta Çinin planlarında 2030-cu ildən sonra daxili yanma mühərrikindən imtina etmək, faydalı qazıntılardan imtina etmək kimi planları varsa, bu o deməkdir ki, neft ölkələrində növbəti problemlər yaşana bilər. Yəni neftə olan tələbatın, dəyərin, önəmin azalması neft ölkələrində, iqtisadiyyatı neftdən asılı olan ölkələrdə ciddi problemlər yaradacaq. Yəni bu nöqteyi-nəzərdən Azərbaycan indidən düşünməlidir ki, bir müddətdən sonra neftdən imtina edilməsi prosesi başlanacaqsa bunun Azərbaycana hansı mənfi təsirləri olacaq. Bizim bununla bağlı hazır konsepsiyamız və müzakirə ortamımız yoxdur. Ciddi düşünülmüş proqramlar da yoxdur”.

**Natiq Cəfərli həmçinin qeyd edib ki, qlobal istiləşmənin şirin suya çıxış imkanlarını məhdudlaşdıracağı ilə bağlı xəbərdarlıqlar səsləndirilir:**

”Burada da Azərbaycanın vəziyyəti o qədər də yaxşı deyil. Çünki içməli su hövzələrimiz məhduddur və xarici ölkələrdən asılıdır. Bizim ən böyük şirin su qaynağımız olan Kür çayı və Araz çayı digər ölkələrin ərazisindən keçir və həmin ölkələrdə də şirin, içməli suya tələbat artdıqca daha çox istifadə olunur. Azərbaycana çatdıqca daha çox suyun azalmasının və qurumasının şahidi oluruq. Necə ki, Kür çayında son illər suyun səviyyəsinin xeyli aşağı düşdüyünün şahidiyik”.

Ekspertin sözlərinə görə, problem ondan ibarətdir ki, qlobal istiləşmə ilə, ekoloji problemlərlə bağlı əməli tədbirlər çərçivəsində yaşıl iqtisadiyyata keçiddən başqa ciddi müzakirə olunan mövzu yoxdur: ”Quraqlığın, daşqınların olması, iqlim dəyişikliklərindən irəli gələn kataklizmlər iqtisadiyyata təbii ki, ziyan vurur. Bu, trilyonlarla da, milyardlarla da ola bilər. Amma problem odur ki, bunun qarşısının alınmasının effektiv yolları hələlik təəssüf ki, yoxdur və bunun yaxın gələcəkdə tapılması da o qədər asan görünmür. Çünki təbiətin də qanunları var. Ona görə də ölkələr bu itkilərə hazırlıq görür. Ərzaq təhlükəsizliyi məsələsini, enerji təhlükəsizliyi məsələsini həll etməyə çalışır”.

*Məsələnin həlli ilə bağlı Azərbaycandakı tendensiyanı şərh edən iqtisadçı məsələyə yetərincə ciddi yanaşılmadığını düşünür:* ”Təəssüf ki, bizdə yeni enerji dünyasına, yeni yaşıl iqtisadiyyata, iqlim dəyişkliklərindən doğan problemlərin həlli ilə bağlı ciddi bir addım müşahidə edilmir. Ümumiyyətlə, bununla bağlı danışılmır. Nə cəmiyyətdə, nə də hökumətdə müzakirələr var. Yalnız ekspert cameəsində problemlə bağlı az-az yazılara rast gəlinir. Yəni bizdə hələ sanki bu məsələni ciddiyə almırlar”.

**Sənan İsmayıl**

# Əmlaklarınızı sığortalayın!

## “Nazir düz deyir, mən də tərəfdarıyam”

**Azərbaycanda hadisələr zamanı mülk sahiblərinə dəymiş ziyanın ödənilməsi üçün əmlakların sığortalanması vacibdir. Bunu Fövqəladə hallar naziri Kəmaləddin Heydərov əhaliyə müraciətində deyib.**

Nazir bildirib ki, mülk sahibləri, sahibkarlar əmlaklarını sığortalamalıdırlar. ”Ölkəmizdə bir neçə sığorta şirkəti var. Onların sığorta ilə bağlı məbləği də o qədər yüksək deyil. Dünya praktikası var. Buna hər bir vətəndaş əməl etsə, heç bir problemimiz olmayacaq”, - nazir bildirib.

**”Əmlak” Ekspert Mərkəzinin direktoru Ramil Osmanlı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, sığorta vacib məsələdir:**



Ramil Osmanlı: “Çünki vətəndaşlar, sahibkarlar, fiziki şəxslər buna görə problem yaşayırlar”

- Azərbaycanda sığorta sisteminin inkişafından razı olmasam da, sığortanın tərəfdarıyam. Çünki sığorta bazar iqtisadiyyatının əsas elementlərindən biridir. Bəli, hamımız bilirik ki, ölkədə sığorta sistemində problemlər var. İllərlə sığorta məbləği ödəyən vətəndaş zərər gördükdə ödədiyinin qarşılığını ala bilmir. Sığorta şirkətləri müxtəlif bəhanələrlə sığorta məbləğini ödəməkdən imtina edir, yaxud da sığorta məbləğinin az bir hissəsini ödəyirlər. Ona görə də vətəndaşlar narazı qalır. Sığorta şirkətlərinə inamsızlıq da buradan yaranır. Vətəndaş bir tərəfdən baxanda haqlıdır ki, əgər lazım olduğu halda sığorta məbləğini ala bilməyəcəksə, niyə sığorta pulu ödəsin?! Amma hesab edirəm ki, yenə də sığorta olunmaq lazımdır. Bəzi neqativ hallara baxmayaraq, şəxsən mən sığortanın tərəfdarıyam. Çünki vətəndaşlar, sahibkarlar, fiziki şəxslər buna görə problem yaşayırlar. Sözsüz ki, sığorta sisteminin tətbiqində problemlər var. Sığorta şirkətləri müflis olur, səbəb göstərilmədən bağlanır. Belə hallar sığorta sahəsinə zərbə vurur. Lakin bu sahə inkişaf etməlidir. Təklif edirəm ki, sığorta olunanlar aktivliyini artırsın. Eyni zamanda sığorta edənlər də normal fəaliyyətlərini təmin etsinlər. Tərəflər arasında qarşılıqlı etimad yaransın. İnkişaf etmiş ölkələrdə sahibkarlar, adi vətəndaşlar, iş adamları mümkün zərərlərini sığorta hesabına qarşılayır. Bizdə də nəhayət bu sahə inkişaf etməlidir.

**Məlahət Rzayeva**

# Gələn il qiymətlər daha baha olacaq

## “Ümumi istehlakda yerli istehsalın payının artırılması daha da aktuallaşır”

**“İlkin proqnozlara görə, gələn ilin birinci yarısında dünya bazarında qiymət artımları davam edəcək. Bu baxımdan, ümumi istehlakda yerli istehsalın payının artırılması daha da aktuallaşır”.** Bu sözləri millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib. Deputat bildirib ki, inflyasiyanın minimumlaşdırılması üçün yerli istehsalın genişləndirilməsi olduqca vacibdir: ”Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin ilk 10 ayında inflyasiya 6.2 faiz olub. Bu, 2017-ci ildən sonra ən yüksək illik rəsmi inflyasiya göstəricisidir. Rəsmi statistikaya əsasən, bu il ərzində bütün aylar üzrə əvvəlki aya nisbətən illik inflyasiya səviyyəsi daha yüksək olub, 10 ayda 3 dəfə artıb.



Ərzaq məhsullarının qiyməti daha çox yüksəlib. İnflyasiya ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 107,4 faiz, qeyri-ərzaq məhsulları üzrə 104,8 faiz olub. Noyabr ayında qiymət səviyyəsi əvvəlki ilin uyğun ayı ilə müqayisədə 11,1 faiz çoxalıb”.

V.Bayramovun sözlərinə görə, rəsmi inflyasiya rəqəmi göstərir ki, istehlak bazarında qiymətlərin optimallaşdırılması üçün daxili təklifin artırılması və fermerlərin paytaxt bazarlarına çıxışının təşviq edilməsinə ehtiyac var: ”Qarşıdan bayram günlərinin gəldiyini nəzərə alsaq paytaxtda mütəmadi fermer yarmarkaların təşkili məqsədəuyğun olardı. Bu zaman xərclərin bir hissəsinin, o cümlədən nəqliyyat xərclərinin yerli icra hakimiyyəti orqanları və müvafiq mərkəzi icra hakimiyyəti qurumu tərəfindən qarşılanmasına ehtiyac var”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

İsmayıl Qocayev

# Ən effektli üsul maliyyə cəzasıdır

## Televiziya və radio rəhbərlərini çağırıb fakt qarşısında qoymaq lazımdır

**Son dönəmlər Azərbaycanın televiziya kanallarında keyfiyyətinə və ictimai əhəmiyyətinə görə fərqlənən verilişlər var. Bu da onu göstərir ki, televiziya kanalları maraqlı, keyfiyyətli, peşəkar səviyyədə veriliş hazırlamaq potensialına malikdir.**

Xüsusən, dövlət kanallarında milli-mənəvi dəyərlərin təbliği, ictimai əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi, vətənpərvərlik, uşaqların və yeniyetmələrin intellektual inkişafı və digər sahələr üzrə keyfiyyətli maarifləndirmə proqramlarını görmək mümkündür. Lakin bu nümunələr heç də televiziya və radio qurumlarının təqdim etdikləri bütün verilişlərə şamil edilə bilməz. Televiziya və radio kanallarının fəaliyyətində nöqsan və çatışmazlıqlar hələ də qalmaqdadır. Efirlərimizdəki bəzi problemlər cəmiyyətdə zaman-zaman müzakirə mövzusu olur, media mütəxəssisləri, ictimaiyyət nümayəndələri mövcud problemlərlə bağlı fikir və təkliflərini səsləndirirlər. Lakin görünür, məsələnin daha geniş ictimaiyyətin müzakirəsinə çıxarılmasına, nöqsanların aradan qaldırılması və innovativ yeniliklərin tətbiqi barədə konkret təkliflərin irəli sürülməsinə ehtiyac var. İctimaiyyəti narahat edən və ən çox müzakirə olunan məsələlərdən biri televiziya kanallarında aşağı səviyyəli, keyfiyyətsiz əyləncə və şou-biznes xarakterli verilişlərə yer verilməsidir. Vurğulanır ki, son illər dünyada kinoindustriya, şou-biznesin güclü inkişafı telekanalların proqram siyasətinə də ciddi təsir göstərir. Televiziya kanalları həmin təbəqəni cəlb etmək üçün ciddi rəqabət aparırlar. Amma nəzərə alınırlar ki, bu səpkili verilişlər heç bir ictimai əhəmiyyət kəsb etməməklə yanaşı, müəyyən mənada cəmiyyətdə neqativ tendensiyaların yayılmasına da istiqamət verir. Gənclərin və yeniyetmələrin zövqünü, dünyagörüşünü korlayır, təlim-tərbiyəsinə mənfi təsir edir.

Televiziya sahəsindəki problemlərdən söz düşərkən əsas diqqət Milli Televiziya və Radio Şurasına yönəlir. Ölkə ictimaiyyəti efirlərdəki nöqsanlara və qıcıq doğuran bayağı verilişlərə görə televiziyalarla yanaşı, Milli Televiziya və Radio Şurasına da tənqid edir. Bildirirlər ki, qurum bu cür məsələlərdə daha sərt addım atmalıdır, müəyyən qadağalar tətbiq etməlidir.

**Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri İsmət Səttarov mətbuata açıqlamasında vurğulayıb ki, televiziyalarda yayımlanan verilişlərlə bağlı daim monitorinq aparılır və verilişlərin qanunla müəyyən edilmiş normalara uyğun olub-olmadığı yoxlanılır. Amma İ.Səttarov bildirib ki, verilişlərin bayağı olub-olmamasını müəyyən etmək üçün qanunvericilik bazası yoxdur:** "MTRŞ və ya digər qurumun bu müstəqil redaktor fəaliyyətinə müdaxiləsi qadağandır. Əks halda bu, senzura amili olar. Yəni hər hansı bir verilişə bayağı deyərək onu bağlamaq qəbuledilməz bir yanaşmadır. Təbii ki, burada başqa bir məqam var. İctimai qınaq öz sözünü deyir və Şuranın da bu istiqamətdə tövsiyələri olur".

*Sədrin sözlərinə görə, bəzən sosial məzmunlu verilişlərdə konkret qanun pozuntuları qeydə alınır və o qanun pozuntularına görə də cərimələr tətbiq edilir:* "Tək sosial verilişlərdə deyil, digər verilişlərdə, o cümlədən xəbərlərdə də problemlər olur. Biz bunları müzakirə edirik, baş redaktorları, xəbər redaktorlarını, aparıcıları dəvət edirik. Bəzi ümumi məsələlər, mövzular var ki, onun ictimailəşdirilməsi, yayımı qadağan deyil, amma cəmiyyət tərəfindən çox pis qarşılanır və ona görə də bəzi mövzular var ki, onlara toxunmamaq məsləhət görülür. Aparıcılar da, redaktorlar da bunları anlayışla qarşılayırlar.

MTRŞ rəhbəri qeyd edib ki, həm qanunvericiliyin tələblərini pozmadan, həm də ictimai maraqları nəzərə alaraq bu cür halların qarşısını almağa çalışırlar: "Bir misal gətirim. 11 yaşlı qızın zorlanması faktı çox geniş işıqlandırıldı. Ondan sonra bizim televiziya rəhbərləri, baş redaktorlarla müzakirələrimiz oldu ki, gələcəkdə belə hallar olanda təqdimat formasına diqqət yetirilsin. Yəni təqdimat cəmiyyəti narahat etməyəcək şəkildə olmalıdır. Məlumatı təqdim etmək formasından da çox şey asılıdır. Əgər sən o hadisədən böyük bir şou yaradırsan və yaxud hansısa doğru olmayan məsələləri ora əlavə edirənsə, bu, əlbəttə pozuntudur".



**Televiziya kanallarının mövcud durumu ilə bağlı "Şərq"ə danışan tanınmış jurnalist Azər Həsrət bildirib ki, MTRŞ-da rəhbərlik dəyişimindən və bəzi islahatlardan sonra müəyyən keyfiyyət dəyişikliyi baş verib. Lakin ekspertin fikrincə, ümumi yanaşma hələ də dəyişməyib:** "Bir neçə dəfə MTRŞ televiziya kanallarına efirlərin yasaqlanması kimi cəzalar tətbiq edib. Ancaq ümumi mənzərə qənaətbəxş deyil. Media eksperti olmaqla yanaşı, həm də tamaşaçı, dinləyiciyəm, informasiya istehlakçısıyam. Problemlərin niyə həll edilmədiyini bilmək istəyirəm. Gün ərzində radioları dinləsəniz, görərsiniz ki, çox bərbad dilləri var, adam dəhşətə gəlir. Hansısa mövzu ətrafında "mütəxəssis" dəvət edir, efirdə danışdırırlar. Dəvət etdikləri "mütəxəssislər" Azərbaycan dilinin "anasını ağladır". Əksər sözləri rus dilində, küçə ləhcəsində, jarqon ifadələrdən ibarətdir. Bütün bunlar davamlı şəkildə, hər gün canlı efirə gedir. Niyə MTRŞ müdaxilə etmir, monitorinq aparıb televiziya kanalları ilə bağlı ölçü götürmür? Həmin "mütəxəssislərі" dəvət edən aparıcı da efirdə heç nəyə düzəliş etmir. Bəzən aparıcı özü efirlərdə bütöv xalqın adından danışır. Müsahibinə deyir ki, "mən sizi Azərbaycan xalqı adından təbrik edirəm". Aparıcının buna haqqı çatmır".

> "İctimai rəyi zədələyən, Azərbaycan xalqının milli mentalitetinə zidd olan verilişlərin yayımlanmasına göz yummaq olmaz"

**A.Həsrət vurğulayıb ki, MTRŞ-nin televiziya kanallarına müdaxilə etməməsi anlaşılan deyil:** "Demirik ki, MTRŞ senzura tətbiq etsin, siyasi məsələlərə qarışsın. Amma səviyyəsiz, ictimai rəyi ciddi şəkildə zədələyən, Azərbaycan xalqının milli mentalitetinə zidd olan verilişlərin baş alıb getməsinə imkan verməmək olmaz. Yaxşı olar ki, MTRŞ daha məsuliyyətli davransın və deyilən problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görsün. Problemləri aradan qaldırmaq heç də çətin məsələ deyil. Televiziya və radio rəhbərlərini dəvət edərək onları fakt qarşısında qoymaq lazımdır. Televiziya kanalları ya tələblərə əməl etməli, ya da verilən cəzalara razı olmalıdır. Efirləri qısa müddətə qapatmaq yüngül cəzadır. Hesab edirəm ki, ən effektli üsul maliyyə cəzasıdır. Əgər hər kəs öz işinə məsuliyyətli və peşəkar yanaşsa, mövcud problemlər də aradan qalxar".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Türkiyə iqtisadiyyatını ağır günlər gözləyir

## Hətta 1 dollar 20 lirəyə qədər yüksələ bilər



**Türkiyə lirəsi ABŞ dollarına nisbətdə ucuzlaşmaqda davam edir. Dünən səhər saatlarında birjalarda bir dolların qiyməti 15 lirə həddini keçib.**

Son birja günü ərzində lirə dollara nəzərən 2 faizə yaxın ucuzlaşıb.

Hazırda birjalarda 1 ABŞ dolları 15,05 lirə ətrafında alınıb-satılır. Səhər saatlarında bir dollar 15,28 lirəyədək yüksəlib.

Qardaş ölkədə yaşanan ciddi iqtisadi böhranla bağlı vəziyyəti "Şərq"ə şərh edən iqtisadçı Elman Sadıqov bu ucuzlaşmanın gözlənilən olduğunu deyib: "Bu gün Türkiyə Mərkəzi Bankı gözlənilirdi ki, faizləri bir faiz bəndi aşağı endirəcək, amma açığı, bunun türk lirəsinin zəifləməsinə gətirib çıxaracağı gözlənilirdi. Çünki bazara belə bir siqnal verilmişdi. Amma bununla bağlı ciddi olaraq bir narazılıq var idi, çünki bilinirdi ki, bu qərar türk lirəsinin konkret olaraq zəifləməsinə gətirib çıxaracaq. Nəticədə Mərkəzi Bank faizi bir faiz bəndi - 15-dən 14-ə endirdi və türk lirəsi hazırda dəyər itirir və böyük ehtimalla dəyər itirməkdə də davam edəcək. Bu, Türkiyə iqtisadiyyatında bir tərəfdən ixracın artımına hesablanmış məsələlərdir. Digər tərəfdən isə sürətlə dəyər itirmə Türkiyə iqtisadiyyatında müəyyən risklər yaradır və mənfi məsələləri ortaya çıxarır. Xüsusilə türk lirəsinin dəyər itirməsi əhalinin alıcılıq qabiliyyətini aşağı salır və inflyasiyanı gücləndirir. Ölkədə ÜDM və bir çox göstəricilər dollarla hesablanır. Digər tərəfdən ölkənin özünün dollarla bir çox böyük borcları var. Bunların da dəyəri artır və ciddi təzyiq yaradır.

Bir tərəfdən faiz endirməyə gedirlər və bu, digər tərəfdən lirənin düşməsinə səbəb olur. Türk lirəsinin dəyərdən düşməsinin qarşısını almaq üçün Mərkəzi Bank özünün rezervlərindən pul xərcləyir. Bu, iqtisadi nəzəriyyələrə də uyğun olmayan bir məsələdir.

İndi Türkiyə qərara gəlib ki, faizləri aşağı endirsin və ya faiz olmasın. Amma bu halda türk lirəsinin vəziyyətinin necə olacağı sual altındadır".

**Elman Sadıqovun sözlərinə görə, türk lirəsinin dəyər itirməsini istəyən tərəflər var.**

"Hətta bəzi söylənilər var ki, dollar 20-22 lirəyə qədər artacaq. Bazarda da bu məsələlər hakimdir və gözlənilir".

*İqtisadçı bildirib ki, Türkiyə bu faiz artımını əsasən ixraca hesablayır:*

"Xüsusən Afrika, Avropa, region ölkələrində aparıcı rol oynamaq istəyir. Bu, aydın məsələdir. Amma bu məsələnin gətirəcəyi riskləri böyük türk iqtisadiyyatı nə dərəcədə həzm edə biləcək, onu zaman göstərəcək. Qısa müddətdə bunun müsbət effekti gözlənilmir. İxrac nə vaxtsa Türkiyəni ön sıraya çıxaracaq, bir şərtlə ki, keyfiyyət itməsin. Türkiyə 2023 seçkilərinə qədər maksimum şəkildə problemləri həll etmək istəyir, amma kursun qalxması nəticəsində yaranan problemləri həll etməyə vaxtı çatacaqmı, əsas sual budur".

Sənan İsmayıl



**Günel Səfərova:** "Əsas odur ki, bu yardımlar, ianələr rüşvət kateqoriyasına keçməsin"



# "Valideynlərin məktəbə yardım etməsinə mənfi tərəfdən baxmaq doğru deyil"

**Valideyn-Müəllim Assosiasiyaları tarixin arxivinə yol alıb. Ən birincisi, bu "assosiasiya" kəlməsinin çətin tələffüzündən xilas olacaqları münasibətilə valideyn və şagirdlərə təbrik düşür. Hər məsələdə bir son olduğu kimi nəhayət "vma"ların da axırı çatdı.**

Orta məktəblərdə yaranan narazılıqlar, söz-söhbətlər "vma"ların sonunu yaxınlaşdırdı, desək, yanılmarıq. Tədris ilinin əvvəli, ortası - fərq etməz, yığılan Fond pulları, bayramlar, əlamətdar günlər ərəfəsində edilən pul toplanması xəbərdarlıqları valideynlərin də, müəllimlərin də gününü göy əskiyə bükürdü. Direktorların başı az "dərd" çəkmirdi. Bundan sonra nə olacaq? Yeni doğrudan da orta məktəblərdə daha pul yığılmayacaq? İnanmaq istərdik. Amma inanıb-inanmamağa ehtiyac qalmayacaq deyəsən. VMA-ların əvəzinə başqa qurumun fəaliyyət göstərəcəyinə dair açıqlama var artıq. Bəri başdan xahiş edək ki, yeni quruma sadə bir ad tapsınlar. VMA AVM-ə (alış-veriş mərkəzi - M.R.) daha çox oxşayırdı. Funksiyası da demək olar eyni idi...

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva KİV-ə açıqlamasında bildirib ki, valideyn-müəllim, valideyn-məktəb fəaliyyətinin düzgün qurulması ilə bağlı ictimai təşkilatların yaradılması nəzərdə tutulur. Yeni təşkilatın yaradılması ilə bağlı hazırda müzakirələr aparılır: "Artıq müəyyən maraqlı təkliflər var. Yaxın gələcəkdə alternativ idarəetmə qurumu olacaq". M.Vəliyeva qeyd etmişdi ki, Valideyn-Müəllim Assosiasiyaları ilə bağlı problemlər gündəmdədir: "Həmin VMA-lar məktəblərə sosial dəstək göstərilməsinə istiqamətlənən QHT kimi fəaliyyət göstərir. Bu qurumun fəaliyyətinə məktəb və rəhbərliyi, eləcə də müəllim qoşula bilməz. Bu təşkilat yalnız valideynlərin könüllü arzusu ilə fəaliyyət göstərir".

Qeyd edilir ki, VMA 2005-ci ildə Təhsil Nazirliyinin və BMT-nin Uşaq Fondunun təşəbbüsü ilə yaradılmış təhsil platformasıdır. O, ABŞ modelindən götürülüb və bütün inkişaf etmiş dövlətlərdə fəaliyyət göstərir. Assosiasiya təhsilə, məktəbə dəstək funksiyasını, eyni zamanda, qeyri-hökumət təşkilatları haqqında qanunvericiliyə uyğun olaraq ictimai nəzarəti həyata keçirir.

AVMA-nın əsas məqsədi ölkəmizdə təhsilin keyfiyyətinin yüksəldilməsinə, təhsil mühitinin formalaşdırılmasına dəstək olmaq, həmçinin müəllim, valideyn və şagirdlərin hüquqlarını müdafiə etmək və müxtəlif sosial xarakterli layihələri həyata keçirməkdir.

**Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, "Vətəndaş" Tədqiqat və İnkişaf İctimai Birliyinin sədri Günel Səfərova "Şərq"ə açıqlamasında müzakirəsi aparılan məsələnin İctimai Şura daxilində araşdırılacağını bildirdi:**

- Bu məsələ araşdırma tələb edir. Bilməliyik ki, VMA-ların rolu, səlahiyyəti, missiyası nədən ibarətdir və yeni yaradılacaq qurumun hansı fəaliyyət istiqamətləri olacaq. Təhsil Nazirliyi yanında İctimai Şura varsa, bəlkə başqa bir qurum yaradılsın? İndiyədək VMA qeyri-hökumət təşkilatı kimi qəbul edilib. Layihələrin həyata keçirilməsi məqsədilə dövlətdən qrant alıb. Başqa hansı statusu var, bilmirəm. Ümumiyyətlə, VMA-nın fəaliyyəti mənim üçün qaranlıqdır. Hüquqi statusu varmı? Təhsil Nazirliyinin icazəsi alınıbmı, onlarla görüşməliyik və bu suallara cavab tapılmalıdır. Hesab edirəm ki, bir qeyri-hökumət təşkilatının, yerli bir təşkilatın bütün orta məktəbləri əhatə etməsi mümkün deyil. Biz birgə müzakirələrlə qurulacaq yeni təşkilatın, yeni qurumun formasını müəyyən etməliyik. Ona görə də VMA-nı nə əvəz edəcək, yeni qurumun forması necə olacaq, hələ dəqiq cavab vermək mümkün deyil.

**G.Səfərova tədris müəssisələrinə valideynlərin ianələr etməsi praktikasının mövcud olduğunu dedi:**

- Dünyada bu praktika var. İcma əsaslı məktəblər var ki, valideynlər ora ödəniş edir. Məsələn, bir neçə şagirdin təhsil xərclərinin ödənməsinə, məktəbə lazım olan hansısa avadanlığın alınmasına və sair bu kimi məsələlərin həllinə yardım edirlər. Şəxsən mənim övladımın təhsil aldığı 83 saylı orta məktəbdə indiyədək bizdən 1 manat da pul istəyən, pul toplayan olmayıb. Hansısa məktəblərdə bu kimi hallarla bağlı məlumatlar yayılır. Hesab edirəm ki, valideynlərin məktəbə yardım etməsinə mənfi tərəfdən baxmaq lazım deyil. Tutalım, sinifdə şagirdlərin dərsləri daha yaxşı dinləməsi üçün nəsə bir avadanlığı lazımdırsa və onun alınmasına valideynlər öz istəkləri ilə yardım edirlərsə, burada mənfi hal yoxdur. Əsas odur ki, bu yardımlar, ianələr rüşvət kateqoriyasına keçməsin. Valideynlərin maddi yardımlarını şagirdlərin tədris prosesini yüngülləşdirəcək, onların daha keyfiyyətli təhsil almasına kömək edəcək istiqamətə yönləndirməliyik. Valideynlərin yardımlarına rüşvət kimi deyil, təhsilə edilən dəstək kimi yanaşmalıyıq. Bu halda təhsildə keyfiyyətin yüksəlməsinə nail olacağıq.

Məlahət Rzayeva

# Binəqədinin hakimi qanunları saymır

## 18 min manatın taleyi həll olunmur

“Təsəvvür edə bilməzsiniz, hakim deyir, “nə edə bilərəm, qadın xeylağıdı, türməyə salım?!”



**“2019-cu ildə bir nəfərə 18 min manat borc pul vermişəm. İki ildir, pulumu geri ala bilmirəm”. Anar Həbib oğlu Əmrahov belə bir şikayətlə “Şərq”ə müraciət etdi. Məhkəmənin qərarının icra edilmədiyini deyən Anar Əmrahov başına gələnləri danışdı:**

- 2019-cu ildə bir tanışımın xahişi ilə onun rəfiqəsinə 18 min manat borc pul verdim. Xanım dedi ki, 1-2 aya pulu qaytaracaq. Artıq 2 il keçir, hələ də pulu qaytarmayıb. Üstəlik, az qala məni borclu çıxarır. Pulu həmin şəxsə notarial qaydada vermişəm. Sənədli-sübutlu. Sənəddə qeyd olunurdu ki, pulu alan şəxs 3 ay müddətində qaytarmalıdır. 3 aylıq müddət keçdikdən sonra sənəd qüvvəsini itirdi. Mən məhkəməyə iddia ərizəsi ilə müraciət etdim. Pulu alan xanım Binəqədi rayonu, Dərnəgül qəsəbəsindəki yataqxanalardan birində yaşayır, amma Ağdam rayonunda qeydiyyatdadır. Buna görə də işə Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Ağdam Rayon Məhkəməsində baxıldı. Xanım da məhkəmə prosesində iştirak etdi. Məhkəmə mənim - zərərçəkmişin xeyrinə qərar çıxardı. Lakin xanım məhkəmənin qərarından apelyasiya şikayəti verdi və bu dəfə işə Gəncə Apelyasiya Məhkəməsində baxıldı. Gəncə Apelyasiya Məhkəməsi də Ağdam Rayon Məhkəməsinin qərarını düzgün hesab etdi və pulun qaytarılmasına dair qərar verdi. Amma xanım yenə qərarla razılaşmadı və Ali Məhkəməyə müraciət etdi. Ali Məhkəmə də məni haqlı saydı. Başqa cür ola da bilməzdi. Çünki ortada sənəd, sübut var. Qərarın icrası isə xanım hazırda Binəqədi rayonu ərazisində yaşadığı üçün Binəqədi Rayon Məhkəməsinə həvalə edildi. O vaxtdan da iş düyünə düşüb. Binəqədi Rayon Məhkəməsinin hakimi Abbas Rzayev başıma oyun açır. Aylardır, məni get-gələ salıb. ”Gözlə, pulunu alıb, qaytaracam”, deyir, məni yola salır. Artıq 1 ildir. Məni süründürürlər. Təsəvvür edə bilməzsiniz, hakim deyir, ”nə edə bilərəm, qadın xeylağıdı, türməyə salım?!”. Deyirəm, barəsində axtarış verin, çağırış göndərin, tələb edin. Məhkəmənin qərarı icra olunmalıdır. Məhkəmə qərarlarının ərazi üzrə icraçıları var. Onlara tapşırın, qərarın icrasını həyata keçirsinlər. Lakin heç bir tərpəniş yoxdur.

*A.Əmrahov Binəqədi Rayon Məhkəməsinin yaritmaz işindən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Ədliyyə Nazirliyinə şikayət məktubu göndərəcəyini dedi.*

**Məlahət**

# “Filmlərin rusca dublyajı problemlər yaradır"



**Vüsal Murtuzəliyev:**
*“Google Translate” ilə tərcümə olunmuş bərbad altyazını verməkdənsə, verməmək daha yaxşıdır”*

**Mahir Qəribov:**
*“Prodakşnların sayının artırılması bu işə daha çox kömək olacaq”*

**Kinoteatrlarda nümayiş olunan bəzi filmlər çox vaxt rusca dublyaj olunur. Azərbaycan dilində isə belə dublyajlar çox azdır. Bu məsələ son zamanlarda cəmiyyətdə və sosial şəbəkələrdə müzakirə predmetinə çevrilib. Və məlum mövzu ilə bağlı ciddi qınaq və tənqidlər səslənidirilir.**

**Kino sənayesində yaşanan bu problem ətrafında ”Şərq”ə danışan aktyor Vüsal Murtuzəliyev deyib ki, dublyaj məsələsinə qarşı laqeydlik bu gün mühüm problemlərdən biridir:** ”Nəzərə almaq lazımdır ki, indiki gənc nəslin əksəriyyəti rus və ingilis dilini bilmir. Çox adam mənə müraciətində Azərbaycan dilində dublyaj olunmuş film istədiyini bildirib. Bizdə dublyaj işini yaxşı bacaracaq aktyor və aktrisalar var. Amma bunun üçün vaxt və müəyyən maliyyə tələb olunur. Təşkil etmək olar. Necə ki, ”CinemaPlus” bir neçə xarici filmi Azərbaycan dilində dublyaj etmişdi. Səsləndirmənin rusca və ya başqa dildə verilməsinə qarşı deyiləm. Sadəcə, öz dilimizdə də dublyaj olmalıdır. Ən sonda tamaşaçı özü dil ilə bağlı seçim etməlidir”.

O, ana dilində subtitrin biabırçı vəziyyətdə olduğundan, dilimizin qaydalarına və normalarına uyğunlaşmadığından bəhs edib: ”Google Translate”lə tərcümə olunmuş bərbad altyazını verməkdənsə, verməmək daha yaxşıdır. Həqiqətən, dəhşətli vəziyyətdir”.

**V.Murtuzəliyev bunu bacaracaq insanların olduğunu söyləyib:** ”Dublyajla bağlı işə güc sərf edə biləcək müəyyən şəxslər var ki, onlarla birgə addımlamaq olar. Bir şeyi də qeyd edim, uzun illər öncə biz ”Space” TV üçün ”Həzrəti Yusif” serialını 20-yə yaxın aktyor heyəti ilə 6 aya öz dilimizdə dublyaj etdik. Həmin serial ölkədə reytinq qazandı. O vaxtlar ”Youtube” yox idi. Məndən serialın disklərini istəyirdilər. Deməli, əmək varsa, sübut və nəticə də olacaq. Bunu etmək olar. Uğurlu alınacaqdır”.

**Senarist Mahir Qəribov da ”Şərq”ə açıqlamasında qeyd edib ki, prodakşnların sayının artırılması bu işə daha çox kömək olacaq:** ”Yəni işə marağın artırılması üçün yeni layihələrin hazırlanması məqsədəuyğundur. İnanıram ki, bu sahədə dövlətimiz tərəfindən atılan addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcək. Çünki bizdə də seriallar, yeni filmlərin çəkilməsi nəzərdə tutulur. Bu iş artıq aktualdır. Fikir verirsinizsə, türk serialları artıq Azərbaycan dilində dublyaj olunur.

Daha çox təkmilləşdirilməsi nəzərdə tutulur. Son dövrlərdə bu məsələ mədəni əlaqələrin inkişaf etdirilməsi baxımından aktualdır”.

**Cəmilə Əzim**

# 9 ağır yol qəzası sos siqnalıdır

## Yorğun, yuxulu, əzgin halda avtomobil idarə edənləri saymaqla bitməz

**“Son 2 ay ərzində təkcə respublika əhəmiyyətli avtomobil yollarında sürücülərin sükan arxasında yuxulaması səbəbindən 9 ağır yol-nəqliyyat hadisəsi baş verib”.**

Bunu Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi, polkovnik-leytenant Namidan Piriyev deyib. Onun sözlərinə görə, əsasən sərnişindaşıma fəaliyyəti ilə məşğul olan bəzi sürücülərin daha çox qazanc əldə etmək məqsədilə gün ərzində istirahət etmədən, əzgin halda nəqliyyat vasitələrini istifadə etməsi onların sükan arxasında yuxulaması və qəza hadisəsi ilə nəticələnir.

**Belə qəzaların baş verməsinin səbəbləri ilə bağlı ”Şərq”ə danışan nəqliyyat üzrə ekspert Elməddin Muradlının sözlərinə görə, bu hadisələr ilkin nəticələr zamanı üzə çıxır:** ”Sürücü sağ qalıbsa etiraf edir, yox əgər ölübsə, onun hərəkət trayektoriyalarını yol polisi izləyir və məlum olur ki, o adam gün ərzində dayanmadan maşın sürüb. Sərnişin yığıb rayonlara gedib, rayondan da sərnişin yığıb dərhal geriyə qayıdıb. Yəni saat fərqi ilə, kameralar vasitəsilə onu müşahidə edirlər və bu qənaətə gəlinir ki, bu adam istirahət eləmədən, yatmadan, dincəlmədən maşın sürüb. Davamlı olaraq sürür, yuxulayır və hadisə törədir”.

**Ekspert bu məsələnin qanunvericilikdə öz əksini tapdığın bildirib:** ”Bizim yol hərəkəti haqqında” qanunda belə bir maddə var ki, sürücü avtomobili yorğun, yuxulu və əzgin halda idarə etməməlidir. Amma bu vəziyyətdə idarə etməyə görə cərimə nəzərdə tutulmur. ”Yol hərəkəti haqqında” qanunun bütün tələblərinə görə cərimə nəzərdə tutulsa, bu bir az düzgün alınmaz. Sadəcə, burada tövsiyə olunur ki, belə olmaz. Bəzən yol polisi harada bir sürücünü saxlayır, o da deyir yuxuluyam, yorğunam. Yol polisi də ona ancaq xəbərdarlıq edə bilir ki, vətəndaş, belə maşın sürməyin, təhlükəlidir və s. Amma neyləyək ki, vətəndaş ondan nəticə çıxarmır. Kimi dindirirsən, deyir, bir tikə çörək qazanmağa çıxmışam. Ailəmi bəs kim dolandırsın? Bəs mən necə eləyim?



“Vətəndaş faciələrdən nəticə çıxarmır. Kimi dindirirsən, deyir, bir tikə çörək qazanmağa çıxmışam. Ailəmi bəs kim dolandırsın?”

Amma beynəlxalq təcrübələri incələmək lazımdır. Məsələn, bu sürücü Avropada hansısa yol polisinə bunu desə yol polisi dərhal maşını çəkəcək qırağa, sürücüyə göstəriş verəcək ki, get 2 saat yat.

Azərbaycan reallığında aparılan təhlillərə görə və ümumiyyətlə, dünya səviyyəsində də belədir ki, ən azı 45 dəqiqə dincəlməlidir adam. Amma bizdə qanun buna imkan vermir. Polis uzaqbaşı şifahi şəkildə tələb edə bilər ki, maşını saxlayın, dincəlin. Onda belə çıxır ki, yol polisi də 45 dəqiqə orada durub onun yanında gözləməlidir”.

**Ekspert bu məsələnin həlli üçün hüquqi mexanizm yaratmaq lazım olduğunu vurğulayıb:** ”Bunun hansısa hüquqi mexanizmini tapmaq lazımdır ki, belə halların qarşısı alınsın. Sürücü bilsin ki, yol polisi onu saxlasa, yorğunluğunu aşkarlasa, onu 45 dəqiqə yolda saxlayacaq. Yaxud da yük maşınları, sərnişin avtobuslarının iştirakı ilə daha çox qəza baş verir deyə onlara topoqraf qoymaq lazımdır. Topoqraflar sürücünün bütün hərəkətlərinə nəzarət etmək imkanı verir. O zaman bu hadisələrin qarşısını müəyyən qədər almaq olar”.

**Sənan İsmayıl**

## 1070 manat cərimə borcu...

### Sürücü özünü polisi idarəsində yandırmağa cəhd edib



**”Bu gün günorta saatlarında 1070 manat cərimə borcu olduğuna görə avtomobili duracağa yerləşdirilən paytaxt sakini Azər Səfərov Bakı şəhər Dövlət Yol Polisi İdarəsinə gələrək əməkdaşlardan avtomobilinin təcili buraxılmasını tələb edib”.**

Bu barədə ”Şərq”ə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

”Ona izah olunub ki, yalnız cəriməni ödədikdən sonra avtomobil buraxılacaqdır. Sürücü bundan əsəbləşərək, polis əməkdaşlarını təhqir edib, ”görün başınıza nə oyun açacam” dedikdən sonra üzərində olan benzinlə özünü yandırmağa cəhd edib. Yaxınlıqda olan polis əməkdaşları və digər şəxslər tərəfindən cəhdin qarşısı alınıb. Ayağıdan yüngül yanıq xəsarəti alan sürücüyə ilkin tibbi yardım göstərilib”, - Mətbuat Xidmətindən bildirilib.

Hazırda Yasamal Rayon Polis İdarəsinin 28-ci Polis Bölməsində araşdırma aparılır. Qeyd edək ki, sürücü - 31 yaşlı A.Səfərov əvvəllər qəsdən bədənə ağır xəsarət yetirdiyinə və adam öldürməyə cəhdə görə məhkumluq həyatı yaşayıb.

**Elan**

Həsənov Sabir Fəttah oğluna verilmiş Abşeron rayonu, Xırdalan şəhərində yerləşən evə məxsus qeydiyyat nömrəsi 1617005205 qeydiyyat sənədi itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Xətai rayonu, Saray küçəsi, ev 13A ünvanında yaşayan Yaraliyeva Nazilə Mahmud qızının adına Suraxanı rayonu, Hövsan qəsəbəsi, Hövsan yaşayış kompleksi, bina 3, giriş 73, mənzil 4 ünvanında verilən üçotaqlı mənzilin sənədləri itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
-**MÜHASİBAT** (2 AY)
-**Mobil telefonların təmiri** (3 ay)
-**KOMPYUTER** (1-3 AY)
-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-**Dizayn** (3-6ay)
-**Masaj** (3 ay)
-**Biçmə - Tikiş** (3 ay)
-**Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2652



## Əfsanəvi Hollivud ulduzunun malikanəsi satılır

**Əfsanəvi aktyor Kirk Duqlasın malikanəsi 7,5 milyon dollara satılır.**

Hollivud ulduzunun illərdir həyat yoldaşı ilə birlikdə yaşadığı ev Beverli Hillsdə yerləşir. Malikanə 7,5 milyon dollar müqabilində yeni alıcıya təqdim olunacaq.

1500 kvadratmetr ərazidə tikilmiş evin ağaclarla əhatə olunan geniş bağçası var. Hovuz, spa, dördotaqlı və ikimərtəbəli malikanənin digər özəllikləri arasında yer alır.

*Qeyd edək ki, "Spartak", "Qələbə illəri", "Dəniz altında iyirmi min liqa" və "Çempion" filmlərində canlandırdığı obrazlarla məşhurlaşan Duqlas sözügedən evi 1970-ci illərdə 400 min dollara satın alıb. O, ötən ilin fevralın 5-də 103 yaşında dünyasını dəyişib.*

## Məşhur aktrisa oğlunun gözü önündə güllələndi

Hadisə yerindən qaçan cinayətkarın axtarışı davam edir



**Meksikalı 42 yaşlı aktrisa-müğənni Tania Mendosa qətlə yetirilib.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, hadisə Meksikanın Kuernavaka şəhərində baş verib.

Aktrisa futbol məşqindən çıxan 11 yaşlı oğlunu gözləyərkən motosikletlə yaxınlaşan naməlum silahlı şəxs tərəfindən övladının qarşısında güllələnib.

Hadisə yerindən qaçan cinayətkarın axtarışı davam edir.

*Qeyd edək ki, T.Mendosa "Netflix"də yayımlanan "Cənubun kraliçası" serialı ilə məşhurlaşmışdı.*

## Hadisənin il ərzində 11 konserti olub

O, bu konsertlərdən 6 milyon 600 min lirə qazanıb



**Müğənni Hadisənin bu illik qazancının sərvət dəyərində olduğu ortaya çıxıb.**

Axşam.az xəbər verir ki, ifaçının il ərzində 11 konserti olub. Hadisə səhnə aldığı bu konsertlərdən 6 milyon 600 min lirə qazanıb.

Eyni zamanda ulduz kollagen reklamından 2,5 milyon lirə, mobil oyun markasından isə 14,5 milyon lirə gəlir əldə edib. Yeni il gecəsi pərəstişkarları ilə görüşə hazırlaşan Hadisə gecə üçün 1 milyon lirə alacaq.

Ümumilikdə isə Hadisə bu il ərzində 24 milyon 600 min lirə qazanc əldə etməyi bacarıb.

*Qeyd edək ki, iş adamı Mehmet Dinçerlərlə sevgili olan ifaçı bu il "Ən yaxşı qadın müğənni" nominasiyasına layiq görülüb.*

## Hava limanında Maradonanın heykəli ucaldıldı



**Buenos-Ayresın əsas beynəlxalq hava limanında Argentina millisinin sabiq futbolçusu və baş məşqçisi Dieqo Maradonanın yeni heykəli qoyulub.**

Report xəbər verir ki, bu barədə ölkənin hava limanları idarə edən "Aeropuertos Argentina 2000" mətbuat yayıb.

"AA2000 Ezeiza Beynəlxalq Hava Limanında" Maradonanın 1986-cı ildə Meksikada keçirilmiş dünya çempionatındakı obrazını əks etdirən 10 nömrəli heykəlin açılışı olub", - deyə məlumatda deyilir.

AA2000-nin sahibi Eduardo Ernekian şəxsən Maradonaya onun heykəlini ucaltmağı təklif edib, mərhum oyunçu isə Ezeiza hava limanında olmasını istəyib.

## Məşhurun üslubundakı həqiqət ortaya çıxıb



**Dəfələrlə eyni paltarı geyindiyi üçün tənqid edilən hersoginya Keyt Middltonun qalmaqallı üslubundakı həqiqət ortaya çıxıb.**

Axşam.az əbər verir ki, şahzadə Uilyamun həyat yoldaşı Keytin sevimli paltarını iki fərqli rəngdə seçir.

Məsələn hersoginya 2016-cı ilin iyununda Almaniyaya səfəri zamanı iştirak etdiyi mərasimdə 2000 funt-sterlinq dəyərində "Catherine Walker"dən qırmızı paltar geyinib. O, bu libasın mavi variantı ilə də obyektivlərə tuş gəlib.

O, 2017-ci ildə hərbi mərasimdə "Alexander McQueen"dən olan 2500 funt-sterlinq dəyərində açıq çəhrayı don seçib. Keyt geyimin bənövşəyi çaları ilə 2018-ci ildə Şahzadə Yevgeniyanın toyunda görüntülənib.



# Aktrisa sığınacaqda 150 sahibsiz itə baxır

Bəzilərinin ayaqları kəsikdir, bəzilərinin gözləri görmür

**Məlahət Rzayeva**

**İranlı aktrisa və motosiklet yarışçısı Məryəm Talayi böyük bir ərazini icarəyə götürərək sahibsiz heyvanlar üçün sığınacaq açıb. Sığınacaqda 150 it saxlanır. Burada itlər yemlənir, müalicə olunur. Sığınacaqdakı itlər arasında ayaqları şikəst, gözü görməyən itlər də var.**

"TRTHaber"in məlumatında qeyd edilir ki, Məryəm Talayi sığınacağı şəxsi vəsaiti hesabına açıb. M.Talayi bir neçə il Kanadada yaşayıb, sonra isə Vətənə dönüb. 2 il əvvəl M.Talayi qadınlararası motosiklet yarışında qalib gəlib. M.Talayi vaxtilə bir neçə filmdə çəkilib, indi isə həm sürücülük dərsi verir, həm də sığortaçılıqla məşğuldur. İrana döndüyü zaman M.Talayi küçələrdə sahibsiz qalan heyvanlar üçün sığınacaq açmaq qərarına gəlib. Paytaxt Tehrandan 25 kilometr məsafədəki Şəhriyar bölgəsində 7 il əvvəl 900 kv.metrlik ərazi kirayələyib və sığınacaq yaradıb. Aktrisaya dostları, yaxınları da dəstək olmağa başlayıblar. Sığınacaqdakı itlərdən 2-sini Talayi 2017-ci ildə Kirmanşahda baş vermiş dəhşətli zəlzələdən sonra yaralı halda küçədə tapıb. Sığınacaqda heyvanlara hər cür yardım göstərildiyini söyləyən M.Talayi deyib ki, cərrahiyyə əməliyyatı lazım olduqda isə veterinar həkimlər sığınacağa dəvət edilir. Heyvanların saxlanmasına xeyli vəsait xəclənir. M.Talayi məsrəfləri qarşılamaq üçün bir neçə yerdə işləyir. Hətta xanım 2 dəfə şəxsi avtomobilini də satmalı olub. Sığınacaqdakı heyvanlar üçün hər gün xüsusi yemək bişirilir. Bu da böyük məsrəf tələb edən işdir. "Əhalimiz heyvanlara yanlış münasibət göstərir. Dilsiz canlılara əziyyət verir, onları incidirlər. Elə itlər var, ayaqları kəsikdi, bəzisinin gözü görmür. Dövlət isə bizim kimi heyvansevərlərə yardım etmək əvəzinə televiziyada buna qarşı proqramlar verilir. Heyvanlara qarşı cinayətlər hər gün artır. Dövlət isə heç bir addım atmır" söyləyən M.Talayi mümkün olduğu qədər sığınacağı qoruyub saxlayacağını və heyvanlara yardım göstərəcəyini deyib.









# Mənfi 30 dərəcə şaxtada tək yaşayır

Yanında yalnız 2 at, 1 köpək, 25 ədəd qoyun var





**Əbülmənaf Aslan 4 ildir Türkiyənin Şirnak bölgəsi Beytüşşəbab əyalətində dəniz səviyyəsindən 2 min 650 metr yüksəklikdəki Faraşin yaylağında yaşayır. Əbülmənafın ailəsi Van bölgəsindədir. Özü isə adını çəkdiyimiz yaylaqda 2 at, 1 köpək, 25 ədəd qoyunla təkbaşına qalır.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Faraşin yaylağında havanın temperaturu mənfi 30-un altındadır. Burada nə telefon var, nə televizor, nə internet. Əbülmənafın günü Yeşilöz dərəsində balıq tutmaq, qoyunları otlağa aparıb gətirməklə keçir. "Şəhər həyatını sevmirəm, təbiət qoynunda, dağ başında yaşamağı üstün tuturam. Yaylaqda Hanke kəndində qalıram. Quraqlıq səbəbindən bu il heyvanlar üçün kifayət qədər yem və saman toplaya bilmədik. Tədarük etdiyimiz yemlər də çürüdü" deyən Əbülmənaf təbii qidalar qəbul etdiyi üçün bugünədək heç xəstələnmədiyini də söyləyib. İHA-ya danışan Əbülmənaf Asan "bir az heyvanım var. Onlara qulluq edirəm, onlarla bərabər yaşadığım üçün xoşbəxtəm. Ailəmə salam göndərirəm", deyib. Beytüşşəbab əyalətinin icra nümayəndəsi Hasan Uğuz isə Əbülmənaf Aslana heyvan yemi məsələsində dəstək olacaqlarını bildirib.

**Məlahət**

## Bayden uşaqlara sarıldı və söz verdi

Prezident qasırğanın xaraba qoyduğu bölgəyə gedib



**ABŞ Prezidenti Co Bayden Kentukki ştatına gedib və 74 nəfərin ölümünə səbəb olan qasırğanın xaraba qoyduğu Dawson Springs qəsəbəsini ziyarət edib.**

Qəsəbədə Baydenin diqqətini zərər görmüş, lakin bütöv qalmış dövlət bayrağını əlində tutan 12 yaşlı Rayliee cəlb edib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Prezident uşağa yaxınlaşaraq onunla salamlaşıb, onu, həmçinin fəlakətdən sağ çıxmış digər vətəndaşları da qucaqlayaraq bağrına basıb. Bu təsirli səhnəni əks etdirən fotolar "Associated Press" (AP) foto muhabiri Andrew Harnik tərəfindən paylaşılıb. Bayden qəsəbə sakinləri qarşısında çıxış edib, fəlakətin nəticələrinin aradan qaldırılması üçün federal hökumətin lazım olan addımları atacağını, bütün xərclərin 1 ay ərzində qarşılanacağını bildirib. Qasırğadan zərər görənlərə psixoloji dəstək də göstəriləcək. Bayden çıxışında "birləşəcəyik, əvvəlkindən daha güclü olacağıq, söz verirəm, hamımız sizin yanınızdayıq", deyib. 12 Rayliee barəsində isə "bu sanki müharibədən çıxmış komandirdir" ifadəsini işlədib. Prezidentin həmçinin fəlakətin nəticələrinin aradan qaldırılması üçün əlavə büdcə gəlirlərinə ehtiyac olmadığını da deyib. Dawson Springs bələdiyyə başqanı Chris Smiley qəsəbənin 75 faizinin xəritədən silindiyini, 100 nəfərin taleyinin hələ də məlum qaldığını, ölənlər arasında 2 aylıq körpənin də olduğunu acı təəssüflə xatırladıb. C.Bayden qasırğadan ağır zərər görmüş Mayfield qəsəbəsini də ziyarət edib. C.Bayden Kentukki, Tennessee və İllinoys ştatlarını federal fəlakət bölgəsi elan edib. Qasırğada tələf olanların ümumi sayı isə 88 nəfərdir.

**Məlahət**

## Ən qədim qayalıqlar araşdırılacaq



**16 dekabr tarixində (UNI) NASA-nın Mars tədqiqatçısı "Perseverance" kraterin eniş yerində ən qədim qayaların nə olduğunu müəyyən edib.**

"Şərq" "BBC"yə istinadən xəbər verir ki, qayaların bəzi qədim lava axınının nəticəsi olan vulkanik mənşəli olduğu deyilir. Bu, missiya üçün mühüm mərhələ kimi qəbul edilir. Çünki indi bu qaya nümunələri növbəti onillikdə Yerə qaytarıla, tarixi müəyyən edilə bilər. "Perseverance" fevral ayında "Jezero" kraterinə düşüb.

Bu təkcə Marsın bütövlükdə eniş yerini deyil, həm də müəyyən vaxtdan sonra Günəş sistemi ilə bağlı qaranlıq məqamları daha çox işıqlandıracaq.

**Cəmilə Əzim**